**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**XƏLİLOV ASLAN XASI oğlu**

# AZƏRBAYCAN SSR-DƏ SOVET NOMENKLATURASI: HAKİMİYYƏTDAXİLİ MÜBARİZƏ (XX əsrin 20-30-cu illəri)

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2018**

Dissertasiya Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın sovet dövrü tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:**
Dövlət mükafatı laureatı,
Əməkdar elm xadimi,
AMEA-nın həqiqi üzvü **Y.M.Mahmudov**

**Rəsmi opponentlər:**

Tarix üzrə elmlər doktoru, professor **C.M.Cəfərov**
Tarix üzrə elmlər doktoru, professor **N.Z.Məmmədov**
Tarix üzrə elmlər doktoru, professor **M.İ.Əmrahov**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "_____" "___________" 2018-ci il iclasında saat "____"-da keçiriləcəkdir.

Ünvan: Bakı – AZ 1143, pr.H.Cavid, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq mümkündür.

Avtoreferat "____" "__________" 2018-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi

katibi t.ü.f.d, dosent: **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Şimali Azərbaycanın XIX-XX əsrlər tarixi, xüsusilə də, sovet dövrü tarixi ilə bağlı olan məsələlərin tədqiqi milli tarixşünaslıq elmi qarşısında duran aktual problemlərdən biridir.

1920-ci ilin aprelində XI Qırmızı Ordu tərəfindən işğal olunan Şimali Azərbaycanda müstəmləkə prinsipinə əsaslanan iqtisadi və sosial siyasət həyata keçirilmiş, 1918-1920-ci illərdə xalqımızın görkəmli siyasi və ictimai xadimlərinin çox böyük məhrumiyyətlər bahasına yaratdıqları milli dövlətimiz – Azərbaycan Xalq Cümhuriyyəti devrilərək əvəzində kommunist nomenklaturanın hökmran olduğu totalitar üsul-idarə tətbiq edilmişdir. 70 illik sovet hakimiyyəti dövründə xalqımız etnik təmizləmə, deportasiya və soyqırımı cinayətlərinə, böyük torpaq itkilərinə məruz qoyulmuşdur. Ümummilli lider H.Əliyev tərəfindən "Azərbaycanın totalitarizm və kommunist ideologiyası şəraitində yaşadığı dövr"[1] kimi dəyərləndirilən sovet dövründə, xüsusilə, 1920-1930-cu illərdə xalqımıza qarşı törədilən cinayətlərin və müstəmləkəçilik siyasətinin əks-sədası özünü respublikamızın bugünkü ictimai-siyasi və iqtisadi həyatında biruzə verir, onun sürətli inkişafına mane olur.

Bu gün müstəqil Azərbaycan dövlətinin ərazi bütövlüyünə ağır zərbə vurmuş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsası məhz 1920-ci illərin əvvəllərində qoyulmuşdur. Həmin dövrdə Sovet Rusiyası rəhbərliyi tərəfindən Zəngəzur qəzasının cənub-qərb hissəsinin Ermənistan SSR-ə verilməsi Naxçıvan MR-nı Azərbaycan Respublikasının əsas hissəsindən ayrı salmış, türk dünyasını parçalamış, ölkəmizin beynəlxalq iqtisadi əlaqələri yolunda ciddi maneəyə çevrilmişdir. Bunları nəzərə alan Azərbaycan Respublikası Prezidenti İlham Əliyev AMEA-nın alimləri ilə görüşlərində söylədiyi nitqlərində və digər çıxışlarında xalqımızın tarixinin fundamental və taleyüklü problemlərinin, o cümlədən, 1920-1930-cu illərdə baş vermiş proseslərin, xüsusilə, Dağlıq Qarabağ, Zəngəzur və digər Azərbaycan torpaqları ilə bağlı problemlərin yüksək elmi səviyyədə araşdırılmasını ölkə tarixçiləri qarşısında bir vəzifə kimi qoymuşdur.[2]

---

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 15-ci kitab (mart 1998 – iyun 1998). Bakı: Azərnəşr, 1998, s.389.

[2] Əliyev İ.H. Azərbaycan MEA-nın 60 illik yubileyi iclasında nitq. "Azərbaycan" qəz., Bakı, 2005, 15 dekabr; Əliyev İ.H. Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında nitq. "Azərbaycan" qəz., Bakı, 2011, 27 aprel.

1920-1930-cu illərdə Azərbaycan SSR-in kommunist ideologiyasının sınaq meydanına çevrilməsi, burada “sosializm quruculuğunun” ən amansız və qəddar şəkildə tətbiqi bu respublikanı qırmızı imperiyanın digər müttəfiq respublikalarından kəskin şəkildə fərqləndirir, məhz onu SSRİ-nin kiçik modeli- maketi kimi xarakterizə etməyə əsas verir: “...Stalin erasında Sovet İttifaqı üçün əlamətdar olan bütün millətlərarası münaqişələr, qanlı orgiyalar və müsibətlər burada, eyni yerdə və eyni zamanda cəmləşmişdi. İmperiya landşaftının sosial və mədəni xüsusiyyətləri, həyati və ictimai təmayülləri heç bir yerdə bu qədər dar bir məkanda, eyni zamanda mövcud olmamışdı. Azərbaycan özündə imperiyanın miniatür şəklini təzahür etdirirdi,... Sovet İttifaqının həyatında gərginlik yaradan bütün elementlər burada mövcud idi”.[1] 1920-1930-cu illər Azərbaycan SSR tarixinin bu “nümunəvi” cəhəti onu yalnız respublikamızın tarixçiləri üçün deyil, eyni zamanda ümumsovet tarixinin, xüsusilə, stalinizmin tədqiqi ilə məşğul olan dünya tarixçi-sovetoloqları üçün də cəlbedici edir.

1920-1930-cu illərdə xalqımızın milli maraqlarını tapdaq altına atan bolşevik eksperimentlərinin həyata keçirilməsində müstəmləkəçi rejimin əsas dayaqları rolunda respublikanın hakim siyasi qrupu – sovet nomenklaturası çıxış etmişdir. Əsasını Azərbaycan Xalq Cümhuriyyəti dövründə müstəqil dövlətimizə qarşı bolşevik Rusiyasının “beşinci kolonu” rolu oynamış şəxslərin təşkil etdiyi Azərbaycan SSR-in partiya, dövlət, hökumət rəhbərliyinin formalaşması prosesindən bəhs edən akademik Y.Mahmudov bu təsisatın antiazərbaycan mahiyyətini belə izah edir: «İşğalçılar, xalqdan ehtiyat edərək, Müvəqqəti İnqilab Komitəsinə və Xalq Komissarları Sovetinin tərkibinə ancaq azərbaycanlıları daxil etmişdilər. Lakin bu, formal xarakter daşıyırdı. Real hakimiyyət hələ 1920-ci ilin fevralında yaradılmış və Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsində işğalçılarla əlbir hərəkət etmiş Azərbaycan Kommunist (bolşeviklər) Partiyası – AK(b)P-nın əlindəydi. AK(b)P Rusiya Kommunist (bolşeviklər) Partiyasının tərkib hissəsi idi və bilavasitə Moskvanın göstərişlərini yerinə yetirirdi. AK(b)P-nın fəaliyyətinə, faktiki olaraq, A.İ.Mikoyan rəhbərlik

---

[1] Баберовский Йорг. Враг есть везде. Сталинизм на Кавказе. М.: Российская политическая энциклопедия (РосПЭМ), 2010, 855 с, с.15.

edirdi. Partiyanın rəhbərliyi də qeyri millətlərdən, xüsusilə, ermənilərdən, gürcülərdən və ruslardan ibarət idi».[1]

Sovet dövlətinin qurucusu olan V.Lenin "kapitalizmdən sosializmə keçid dövrünün" hakim sinfinin proletariat, onun müttəfiqlərinin isə yoxsul və ortabab kəndlilər təşkil edəcəyini, həmin dövrün dövlət formasının isə proletariat diktaturası olacağını iddia edirdi. Lakin bütün sovet məkanında olduğu kimi Azərbaycan SSR-də də "kapitalizmdən sosializmə keçid dövründə" (1920-1930-cu illər) yeni cəmiyyətin hakim sinfi proletariat deyil, sovet nomenlaturası oldu, sonuncunun müttəfiqləri rolunda isə qırmızı ordu və bolşevik cəza-xəfiyyə orqanları çıxış etdi. Həmin dövrdə respublikada proletariatın deyil, məhz sovet nomenklaturasının diktaturası bərqərar oldu. Bu faktlar sovet tarixşünaslığı tərəfindən uzun illər ərzində cəmiyyətdən gizli saxlanılmış, onların obyektiv tədqiqatı qadağan edilmişdi. Bu səbəbdən də, sovet dövründə proletariat diktaturası, mədəni inqilab, elliklə kollektivləşmə, stalinsayağı sənayeləşmə və s. problemlər o dönəmin hakim konsepsiyasına uyğun şəkildə, gen-bol araşdırılsa da respublikanın rəhbər kadrlarının nomenklaturalaşdırılması prosesi haqqında bunu demək olmaz.

Azərbaycan SSR-də sovet hakimiyyətinin siması hesab edilən sovet nomenklaturasının tarixini elmi cəhətdən öyrənmədən 1920-1930-cu illərdə və sonrakı dövrlərdə respublikanın ictimai-siyasi, iqtisadi, mədəni-mənəvi həyatında yer almış mürəkkəb və ziddiyyətli proseslərin əsl səbəblərini və mahiyyətini anlamaq qeyri-mümkündür. Belə ki, tərkibində 1920-1930-cu illərdə Azərbaycan SSR-də "sosializm quruculuğu" prosesinin rəhbərlərinin və icraçılarının cəmləşdiyi, xalqımızın iradəsi ilə deyil, işğalçı qüvvələr tərəfindən formalaşdırılmış respublika sovet nomenklaturasının tarixinin doğru-düzgün öyrənilməsi o dövrlə bağlı olan bütün mühüm problemlərin obyektiv təhlili üçün açar rolu oynayır, çox böyük elmi, ictimai-siyasi və praktiki əhəmiyyət daşıyır.

Tarixi həqiqətlərin aşkara çıxarılmasında həmişə zamana ehtiyac var: məhz zaman hər şeyi öz yerinə qoymaq iqtidarına malikdir. Zaman keçdikcə, tarixi hadisələrin baş verdiyi dövrdən uzaqlaşdıqca həmin proseslərin tam mənzərəsi göz önündə canlanır, onların təfərrüatları haqqında daha əsaslı və tərəfsiz mühakimələr irəli sürmək mümkün olur.

---

[1] Mahmudov Y.M. Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış: Şimali Azərbaycanda kommunist rejimi (1920-ci il 28 aprel – 1991-ci il 18 oktyabr) // Bakı Dövlət Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, 2002, №1, s.70.

Dissertasiyanın yazılması prosesi, 1917-ci ildə Rusiyada baş vermiş Fevral inqilabı və oktyabr bolşevik çevrilişinin, Azərbaycan Xalq Cümhuriyyətinin (may 1918-ci il) yaranmasının 100 illik yubileylərinin qeyd edildiyi bir vaxta təsadüf etmişdir. Eyni zamanda, qarşıdan, müstəqil dövlətimizin varlığına son qoymuş, Şimali Azərbaycanda 70 illik sovet əsarətinə yol açmış bədnam 28 aprel 1920-ci il bolşevik çevrilişinin 100-cü ildönümü gəlir. Adətən, müsbət və ya mənfi xarakter daşımasına rəğmən, taleyüklü tarixi hadisələrin yubileyləri dövründə həmin proseslərin nəticələri və dərslərinin yenidən nəzərdən keçirilməsi zərurəti yaranır, bu istiqamətdə aparılan tədqiqat işlərinin aktuallığı birə on artır. Bu hal 1920-1930-cu illərdə Azərbaycan sovet nomenklaturasının yaranması və onun hakimiyyətdaxili qarşıdurmalarda iştirakı tarixi üçün də xarakterikdir.

Bu baxımdan, 1920-1930-cu illərdə ölkəmizə rəhbərlik etmiş hakim siyasi qrup, onun siyasi ambisiya və davranışlarının obyektiv şəkildə öyrənilməsi, o dövr Vətən tarixinin tam elmi mənzərəsinin yaradılması kimi vacib bir amil tədqiqat işinin mövzusunun elmi dəyərini artırır və onun aktuallığına dəlalət edir.

– Ölkəmizin müstəqillik əldə etməsi, respublikamızın ictimai-siyasi həyatında baş verən demokratik dəyişikliklər fonunda sosial-siyasi tariximizin (1920-1930-cu illər) aktual problemlərinin yeni təfəkkür tərzi əsasında elmi təhlili imkanı və zərurətinin yaranması;

– Azərbaycan SSR-in sovet nomenklaturasının tarixinə həsr edilmiş xüsusi tədqiqatların mövcud olmaması və bu səbəbdən;

– sovet nomenklaturası fenomeni və onun Azərbaycan SSR-in ictimai-siyasi həyatında oynadığı rolun elmi cəhətdən təhlili zərurəti;

– 1920-1930-cu illərdə ölkəmizdə bərqərar olan totalitar və müstəmləkəçi rejimin mahiyyətinin obyektiv yozumu baxımından o dövrdə Azərbaycan SSR-də tətbiq edilən bolşevik kadr təyinatı sisteminin elmi təhlilinin mühüm əhəmiyyət kəsb etməsi;

– cəmiyyətimizin müxtəlif təbəqələri arasında 1920-1930-cu illərdə Azərbaycan SSR-i idarə etmiş hakim idarəedici qrupa və onun ayrı-ayrı nümayəndələrinin siyasi fəaliyyətinə yönəlmiş böyük maraq;

– sovet nomenklaturasının (1920-1930-cu illər) antiazərbaycan və antimilli siyasi fəaliyyətinin müstəqil Azərbaycan Respublikasının bugünkü ictimai-siyasi və iqtisadi həyatındakı əks-sədası;

– tədqiq olunan dövrdə Azərbaycan SSR rəhbərliyində baş verən prinsipsiz ixtilafların hakimiyyət uğrunda mübarizə aspektinin öyrənilməməsi;

– müasir Azərbaycan tarixşünaslığında 1920-1930-cu illərdə fəaliyyət göstərmiş bəzi nomenklatura nümayəndələrinə və o zamankı bir sıra siyasi proseslərə keçən əsrin əllinci illərində formalaşmış təsəvvürlər prizmasından yanaşma hallarının mövcudluğu və bu səbəbdən;

– həmin problemlərin elmi təhlili prosesində ciddi konseptual dəyişikliklərə ehtiyacın yaranması;

– hal-hazırda, sovet dövründə respublika dövlət arxivlərinin müvafiq fondlarında "məxvi", "tam məxvi" qriflər altında mühafizə edilən sənəd və materialların tədqiqatçıların ixtiyarına verilməsi nəticəsində Vətən tarixinin bir çox problemləri, o cümlədən, tədqiq olunan mövzu üzrə yeni məlumat və faktların əldə edilməsi;

– respublika əhalisinin müəyyən qrupları daxilində, xüsusilə, yaşlı nəslə məxsus olan insanlarda sovet dövrü ilə bağlı nostalgiya hisslərinin mövcudluğu;

– qloballaşan dünyada Azərbaycan Respublikasının dövlət müstəqilliyi əleyhinə yönəlmiş təcavüzkar və müstəmləkəçi siyasi dairələrin mövcudluğu kimi mühüm məsələlər araşdırılan mövzunun aktuallığının əsas göstəriciləridir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiya mövzusu Vətən tarixinin 1920-ci ilin əvvəllərindən 1930-cu illərin sonlarınaqədərki dövrünü əhatə edir.

Bu çərçivə Azərbaycan tarixinin sovet dövrünün klassik dövrləşməsi (1920-1930-cu illər) ilə üst-üstə düşür. Qeyd olunan dövrləşmə Vətən tarixi üzrə yazılmış fundamental əsərlərdə[1] irəli sürülmüş və elmi cəhətdən daha samballı bir yanaşmadır. Sovet tarixşünaslığında "kapitalizmdən sosializmə keçid dövrü" kimi xarakterizə olunan 1920-1930-cu illər öz dramatikliyi və faciəviliyi ilə Azərbaycan SSR-də kommunist rejiminin sonrakı mərhələlərindən kəskin şəkildə fərqlənir. Bolşevik rejiminin avanturist "sosialist eksperimentləri" ilə zəngin olan bu dövr dissertasiya mövzusunun "baş qəhrəmanının" – kommunist nomenklaturanın doğuluşu, tədricən, ölkənin, o cümlədən, Azərbaycan SSR-in mütləq hakiminə çevrilməsi ilə səciyyəvidir. Kütləvi insan faciələri fonunda baş verən bu proses amansız qarşıdurmalar və çəkişmələrlə müşaiət olunmuş, respublikanın hakim qrupunun tərkibində və siyasi-mənəvi məzmununda radikal dəyişikliklər baş vermişdir.

---

[1] Azərbaycan tarixi: 7 cilddə, VI c., Bakı: Elm, 2000, 516 s.; История Азербайджана: В 3-х т. T.III, часть I. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1963, 538 с.

**Mövzunun öyrənilmə səviyyəsi.** XX əsr tariximiz, zaman etibarilə, xalqımızın yaxın keçmişi sayılsa da, öyrənilmə səviyyəsinə görə o, "uzaq keçmiş" təəssuratı bağışlayır. Belə ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinəqədərki dövrdə Vətən tarixinin ən qədim dövrlərində baş vermiş ictimai-siyasi və iqtisadi proseslər barədə kifayət qədər aydın elmi təsəvvürlərin mövcud olmasına rəğmən xalqımızın XX əsr tarixi, xüsusilə, sovet dövrü tarixinin bir çox problemləri haqqında bunu demək mümkün deyildi. Bu, sovet dövrü tədqiqatçılarının digərlərinə nisbətən az əzmkar olması ilə deyil, ilk növbədə, o zamankı mövcud ideoloji çərçivələr və qadağalarla əlaqədar idi. Vətən tarixinin sovet dövrü tarixşünaslığında mövcud olan "ağ ləkələr"in bolluğu məhz həmin "tabu"larla bağlı idi.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının ilk illərində Vətən tarixinin sovet dövrünə aid ərsəyə gələn samballı tədqiqatlar azlıq təşkil etmiş, Azərbaycan milli tarixinə dair yazılmış əsərlərin bir çoxunda sovet dövrü, ümumiyyətlə, "unudulmuşdu".

Bu vəziyyətin tezliklə aradan qaldırılması zərurətinə toxunan böyük siyasi xadim – tarixçi Heydər Əliyev, 31 yanvar 1997-ci ildə, AMEA-nın həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşü zamanı Azərbaycanın Sovet dövrü tədqiqatçılarına müraciət edərək demişdi:

"... Azərbaycanın XX əsr tarixi yazılmalıdır. XX əsr çox mürəkkəb bir əsrdir. Bu əsrdə dünyada və respublikamızın həyatında baş verən ictimai-siyasi hadisələr məlumdur. Amma bu XX əsrdə yaşadığımız ideologiya və onun konsepsiyasına görə bizim tariximiz təhrif olunmuşdur. Ona görə də mən çox çalışıram ki, biz XX əsrin tarixini tez yazaq".[1]

Sovet hakimiyyəti illərində Vətən tarixinin təhrif olunmuş və "unudulmuş" mövzularından biri də respublikanı idarə etmiş hakim qrup və onun siyasi davranışları ilə əlaqədardır.

Azərbaycan SSR-in sovet nomenklaturası (XX əsrin 20-30-cu illərində) və onun əsas mövcudluq forması kimi təzahür edən hakimiyyətdaxili savaşın tarixi kompleks şəkildə tədqiq edilməmişdir. Buna əsas səbəb Azərbaycanda Sovet hakimiyyətinin mövcud olduğu 70 il ərzində respublikanın sovet nomenklaturasının formalaşması prosesinin və onun fəaliyyət prinsiplərinin məxvi saxlanılması, hakim siyasi qrup daxilində monolit birliyin mövcud olması haqqında əfsanəyə xələl

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 8-ci kitab (noyabr 1996 – mart 1998). Bakı: Azərnəşr, 1997, s.368.

gətirməmək istəyi olmuşdur. Təsadüfi deyildi ki, sovet cəmiyyətinin, rəsmi olaraq, əsas sosial qrupları elan edilən fəhlə və kəndli siniflərinin tarixi tədqiqat obyektinə çevrildiyi halda, respublikanı, faktiki olaraq, idarə edən hakim siyasi qrupun – nomenklaturanın tarixi «diqqətdən kənarda» qalmışdı. Beləliklə, «doğma» nomenklaturaya «ögey» münasibət bəsləyən sovet tarixşünaslığı hakim siyasi qrupun mövcudluğu və fəaliyyəti barədə susmağa üstünlük vermişdi. Bu baxımdan, respublika kommunist nomenklaturasının (1920-1930-cu illər) ayrı-ayrı «seçilmiş» nümayəndələri haqqında, dövrün siyasi konyunkturasına uyğun olaraq yazılmış pafoslu bioqrafik oçerklər, təmtəraqlı yubiley məqalələri və xatirələr istisna təşkil edir. Bu silsilədən olan və əsasən nomenklatura nümayəndələrinin özləri tərəfindən qələmə alınmış ilk nümunələr hələ 1920-1930-cu illərdə işıq üzü görmüşlər.[1] 1920-1930-cu illərdə yazılmış məqalələr arasında nomenklaturadaxili savaş tarixini özündə əks etdirən, böyük əksəriyyəti respublika partiya təşkilatının sifarişi və razılığı ilə yazılış məqalələrə də rast gəlinir. Hərtərəfli elmi nəticəyə gəlmək baxımından həmin məqalələrin də böyük əhəmiyyəti vardır.[2]

---

[1] Ordubadi M.S. Nərimançılıq. «Azərbaycan» qəz., Bakı, 1990, 13 aprel; Багиров М.Д. Воспоминание о Н.Нариманове. Газ. «Бакинский рабочий», Баку, 1925, 22 марта; Казиев М.А. С.М.Киров в борьбе за социализм в Азербайджане. Газ. «Бакинский рабочий», Баку, 1938, 1 декабря; Бунятзаде Д.Х. Воспоминание о Н.Нариманове. Газ. «Бакинский рабочий», Баку, 1925, 22 марта; Гикало Н.Ф. У подножья Кавказских хребет. Газ. «Правда», Москва, 1934, 7 декабря; Гусейнов М.Д. Воспоминания о Н.Нариманове. Газ. «Заря Востока», Тифлис, 1925, 21 марта; Агамали оглы С.Г. Воспоминание о Н.Нариманове. Газ. «Заря Востока», Тифлис, 1925, 22 марта; Алекперли М.К. Отмолчаться не удаться. Газ. «Бакинский рабочий», Баку, 1937, 4 января; Караев А.Г. Воспоминание о Н.Нариманове. Газ. «Бакинский рабочий», Баку, 1925, 22 марта; Джабиев Г.П. Воспоминание о Н.Нариманове. Газ. «Бакинский рабочий», Баку, 1925, 28 марта.

[2] Бакинская оппозиция. Показания тов. Мамедлинского в КК АКП (б). Газ. «Бакинский рабочий», Баку, 1928, 3 апреля; Мамедлинский А.М. О росте партии. Газ. «Бакинский рабочий», Баку, 1927, 9 марта; Берия Л.П. Развеять в прах врагов социализма. Газ. «Бакинский рабочий», Баку, 1936, 21 августа; Джабиев Г.П. Большевистское регулирование количественного состава нашей партии (К XIV съезду партии). Газ. «Бакинский рабочий», Баку, 1925, 17 декабря; Джабиев Г.П. За беспощадную борьбу с тюркским национализмом. Газ. «Бакинский рабочий», Баку, 1929, 8 августа; Джабиев Г.П. К двадцатилетию Бакинской организации. Газ. «Бакинский рабочий», Баку, 1924, 21 апреля və s.

Ədalət naminə qeyd etmək lazımdır ki, bu nümunələr arasında 1920-1930-cu illərdə respublikaya rəhbərlik etmiş siyasi xadimlərin əsl simasını göstərən epizodlara da yer verilirdi. Bu mənada, 1920-ci ilin aprel çevrilişinin əsas təşkilatçılarından və mirzəyançı qruplaşmanın aparıcı simalarından biri olan, Sovet Azərbaycanında yüksək partiya və dövlət vəzifələri tutmuş Vasili Yeqorovun xatirələri xüsusilə seçilirlər. Bakı Soveti sədrinin 1922-ci ilin əvvəllərində qələmə aldığı həmin xatirələrdə Şimali Azərbaycanda bolşevizmin yayılması, 1920-ci ilin aprel çevrilişinin baş verməsi prosesi, həmin hadisələr ərəfəsində və çevriliş zamanı bolşevik təşkilatlarının və bir sıra siyasi xadimlərin "ideoloji" fəaliyyəti, əsasən, obyektiv şəkildə qiymətləndirilir.

V.Yeqorovun xatirələrindən belə bir nəticə hasil olunur ki, Şimali Azərbaycanda bolşevizmin milli əsasları olmamış və bu səbəbdən də həmin siyasi cərəyan azərbaycanlılar arasında heç vaxt populyar olmamışdır: "11-12 fevral 1920-ci ildə olmuş birinci qurultayda əyalətlərdən gələnlər sübut etməyə çalışırdılar ki, qəzalarda çox güclü təşkilatlar var (məsələn Qarabağın nümayəndəsi onların sayının 40000 üzvdən ibarət olmasını qeyd edirdi), sonradan aydın oldu ki, heç nə olmamışdı...

... yoxlamalar nəticəsində aydın oldu ki, Qarabağda üzvlərin sayı 150 nəfərdən çox olmamış, Lənkəran qəzasında 20-yə yaxın, Qubada 5-6 nəfər, Gəncədə 80-ə yaxın olmuşdur.

Beləliklə, etiraf etmək lazımdır ki, çevrilişə qədər bizə qəzalarda az və ya çox dərəcədə nüfuzlu bir təşkilat qurmaq nəsib olmamışdı"[1].

Müəllif, əyalət "liderləri" tərəfindən qəzalarda bolşeviklərin sayının süni şişirdilməsinin əsas motivinin ideoloji mülahizələrilə deyil, məhz maliyyə məsələsi ilə əlaqədar olduğunu yazırdı. Belə ki, Bakıdakı "bolşevik" rəhbərlik qəzalarda bolşevizm sıralarına cəlb edilən hər bir adama – muzdlu "bolşevikə" görə müəyyən miqdarda pul ödədiyindən "əyalət rəhbərliyi", qəsdən, üzvlərinin sayını artıq göstərməkdə maraqlı idilər.

V.Yeqorov bolşevizmə cəlbetmə kampaniyasına ayrılmış pulların ayrı-ayrı "liderlər" tərəfindən mənimsənilməsinin müxtəlif üsullarının mövcudluğundan bəhs edərək yazırdı ki, bir çox hallarda qəza rəhbərliyi verilmiş pulları öz məqsədləri üçün xərcləyərək, deyirdilər ki, guya həmin pullar müsavatçılar tərəfindən müsadirə edilib[2].

---

[1] Егоров В.Г. Воспоминания. Газ «Бакинский рабочий», Баку, 1922, 2 февраля.

[2] Yenə orada.

Elitar nomenklaturanı vəsf edən bioqrafik oçerk və məqalələr "seli" 1950-ci illərin ikinci yarısından sonraya təsadüf edir. Partiyanın XX qurultayında (1956) şəxsiyyətə pərəstiş kəskin şəkildə tənqid edildi və 1930-cu illərin ikinci yarısından başlayaraq ölkədə bir sıra siyasi xadimlərə qarşı əsassız repressiyalara yol verildiyi qeyd olundu. Bunun ardınca bütün sovet məkanında olduğu kimi Azərbaycan SSR-də də müxtəlif nomenklatura nümayəndələrinin siyasi fəaliyyətini özündə əks etdirən bəraət xarakterli bioqrafik oçerk və məqalələr meydana çıxmağa başladı[1]. Bu tədqiqat və yazılarda 1920-1930-cu illərdə respublikanın hakim elitasının ayrı-ayrı nümayəndələri «əsl leninçi», «mətin kommunist», «nöqsansız siyasi xadim», «Azərbaycanda sosialist quruculuğunun aktiv iştirakçısı» və s. epitetlərlə təsvir edilir, onların tərcümeyi-hallarının və siyasi fəaliyyətlərinin sovet meyarları baxımından müsbət tərəfləri işıqlandırılırdı. Beləliklə, «Müqəddəs yer boş qalmaz» prinsipindən çıxış edən sovet ideoloqları XX qurultayda sındırılmış bütlərin boş qalmış yerlərində yeni bütlər ucaltmaqla sovet cəmiyyətini yenidən şəxsiyyətə pərəstiş erasına qaytarırdılar. Təəssüflə qeyd etmək lazımdır ki, bu prinsip Azərbaycan sovet tarixşünaslığının sonrakı dönəmləri üçün də (1970-1980-ci illərin birinci yarısı) hakim olmuş[2], nəticədə, 1920-1930-cu illərdə

---

[1] Hüseynov A.Ə. Əliheydər Qarayev. Bakı: Azərnəşr, 1961, 96 s.; Hüseynov A.Ə. Levon Mirzəyan. Bakı: Azərnəşr, 1960, 44 s.; Hüseynov A.Ə. Mübariz həyat (Ə.Qarayev – 70). «Kommunist» qəz., Bakı, 1966, 7 iyun; Sultanova H.İ. Ayna Sultanova. Bakı: Azərnəşr, 1965, 80 s.; Kafarov R.A. Muxtar Hacıyev. Bakı: Azərnəşr, 1966, 40 s.; Karenin A.A. Sultan Məcid Əfəndiyev. Bakı: Azərnəşr, 1963, 122 s.; Katibli M.M. Çingiz İldırım. Bakı: Azərnəşr, 1964, 108 s.; Katibli M.M. Xalqın mübariz oğlu (Ə.Qarayev – 70). «Bakı» qəz., Bakı, 1966, 6 iyun.; Katibli M.M. İlk maarif komissarı (D.Bünyadzadə – 80). «Azərbaycan müəllimi» qəz., Bakı, 1968, 5 aprel.; Katibli M.M. Qəzənfər Musabəyov. Bakı: Azərnəşr, 1958, 36 s.; Köçərli F.K. Nəriman Nərimanov. Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı, 1968, 340 s.; Qazıyev M.A. Nəriman Nərimanov (N.Nərimanovun həyat və fəaliyyəti haqqında oxunmuş açıq mühazirənin stenoqrammı). Bakı: Qızıl Şərq, 1956, 39 s.; Казиев М.А. Нариман Нариманов. Баку: Азернешр, 1956, 40 с. Bağırov M.M. Müzəffər Nərimanov. Bakı: Azərnəşr, 1966, 44 s.; Məmmədov V.H. Nəriman Nərimanov. Bakı: Uşaqgəncnəşr., 1957, 70 s.

[2] Əhmədov T.Ə. Nəriman Nərimanov. Bakı: İşıq, 1977, 33 s.; Əhmədov T.Ə. Nəriman Nərimanov. Bakı: Yazıçı, 1982, 300 s.; Hüseynov A.Ə. Görkəmli dövlət xadimi (D.Bünyadzadə – 90). «Kommunist» qəz., Bakı, 1978, 1 yanvar; Hüseynov A.Ə. Həbib Cəbiyev. Bakı: Azərnəşr, 1975, 72 s.; Hüseynov A.Ə. Mübariz həyat (D.Bünyadzadə – 90). «Kommunist» qəz., Bakı, 1978, 8 may; Гусейнов А.А. Алигейдар Караев. Баку: Азернешр, 1976, 80 с.; Sultanova H.İ. Partiyanın

respublikanı idarə etmiş şəxslər və onlar arasında mövcud olan və xroniki xarakter almış prinsipsiz çəkişmələr haqqında elmi tədqiqatlar, demək olar ki, aparılmamışdır. Bu mənada, 1980-ci illərin ikinci yarısından etibarən Sovet İttifaqında həyata keçirilən yenidənqurma dövrü də istisna təşkil etməmişdir. Halbuki, həmin dövrdə digər sovet respublikalarında 1920-1930-cu illərin siyasi tarixinə dair bir sıra ciddi tədqiqat əsərləri meyana çıxmışdı. Azərbaycan sovet tarixşünaslığı isə daha çox gözləmə mövqeyi tutaraq, bu dövrdə də, keçən əsrin 50-ci illərinin ənənələrini davam etdirmişdi. Belə ki, yenidənqurma dövründə yazılmış əksər məqalələr üçün də, 1920-1930-cu illər respublika nomenklaturasının ayrı-ayrı üzvlərinin mədh edilməsi və təkrar bəraəti cəhdləri səciyyəvi olmuşdur[1]. Həmin dövrdə respublika tarixşünaslığında mövcud olan bu ənənəyə qarşı çıxmağa təşəbbüs göstərən tarixçi alimlər E.İsmayılov və C.Həsənov 1930-cu illərin kütləvi repressiyalarının tədqiqinə həsr etdikləri «Haqq və ədalət naminə» adlı

---

mübariz oğlu (B.Əliyev – 100). «Kommunist» qəz., Bakı, 1975, 17 aprel.; Vəzirov X.Q. Partiyanın sədaqətli oğlu (A.İ.Qaber – Korn – 90). «Kommunist» qəz., Bakı, 1973, 21 avqust.; Везиров Х.Г. Верная дочь Коммунистической партии (К 90-летию со дня рождения Н.Н.Колесниковой) // Вопросы истории КПСС, 1972, №9, с.116-119.; Казиев М.А. Нариман Нариманов. Баку: Азернешр, 1970, 187 с.; Mədətov Q.Ə. Ruhulla Axundov. Bakı: Azərnəşr, 1983, 59 s. Давтян С.С. Встречи с Нариман Наримановым // Труды Института истории партии ЦК КП Армении – Филиала Института марксизма-ленинизма при ЦК КПСС. Ереван, 1984, т.3, с.200-205.

[1] Cəfərzadə Ə.M. Köylü qızının taleyi. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1988, 22 iyul; Əzizbəyova P.Ə. Sədaqətli leninçi, alovlu beynəlmiləlçi. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1988, 22 iyul; Quliyev D.P. Sədaqətli leninçi (R.Axundov – 90). «Kommunist» qəz., Bakı, 1987, 22 yanvar; Гулиев Д.П. Ответственность за историческую правду. Газ. «Бакинский рабочий», Баку, 1989, 12 марта; Ахмедов Т.А. На заре жизни // Литературный Азербайджан, 1989, №4, с.97-101; Кочарли Т.Г. Верность заветам Ильича. Газ. «Бакинский рабочий», Баку, 1988, 20 апреля; Кочарли Ф.К. Выдающийся гуманист и интернационалист // Коммунист Азербайджана, 1990, №4-5, с.85-93; Полонский Л.А. Возвращение. Газ. «Бакинский рабочий», Баку, 1988, 13 мая; Полонский Л.А. Жви и помни. Газ. «Бакинский рабочий», Баку, 1989, 21 февраля; Полонский Л.А. Инокомыслие. Газ. «Бакинский рабочий», Баку, 1989, 6 мая; Полонский Л.А. Наместник вождя. Газ. «Бакинский рабочий», Баку, 1988, 15 июня; Полонский Л.А. НЭП в Азербайджане // Литературный Азербайджан, 1990, №1, с.3-9; Полонский Л.А. Последние дни Ильдырыма. Газ. «Бакинский рабочий», Баку, 1988, 15 июня; Полонский Л.А. Сатрап // Литературный Азербайджан, 1989, №4, с.112-124; Полонский Л.А. Чингиз Ильдырым. Баку: Азернешр, 1986, 312 с.

məqalələrində qeyd edirdilər ki, «… bu gün bizim elmimiz sovet cəmiyyətinin inkişafının 70 illik tarixi təcrübəsini özündə əks etdirən hərtərəfli və konyunkturadan kənar bir əsərə malik deyildir»[1].

1990-cı illərin əvvəllərindən başlayaraq, xüsusilə, ölkəmiz müstəqillik əldə etdikdən sonra, Sovet Azərbaycanının 1920-1930-cu illər siyasi tarixinin tədqiq edilməsi istiqamətində müəyyən canlanma müşahidə olunmağa başladı.

Azərbaycan tarixçiləri 1920-1930-cu illərin bir sıra partiya və dövlət xadimlərinə və onların siyasi fəaliyyətinə yenidən elmi qiymət verməyə cəhdlər etmiş, bu zəmində bir sıra məqalələr, dissertasiyalar və monoqrafiyalar meydana çıxmışdır. Lakin müxtəlif mövqeləri əks etdirən bu məqalə və monoqrafiyaların böyük əksəriyyəti, ənənəvi olaraq, N.Nərimanovun siyasi fəaliyyətinə həsr edilmiş, həmin əsərlərdə onun Azərbaycan SSR rəhbərliyində təmsil olunduğu dövrdə (1920-ci il aprel – 1922-ci il mart) respublikada cərəyan edən siyasi proseslərin kifayət qədər geniş elmi xarakteristikası verilmişdir.

Bu əsərlər sırasında F.Əhmədovanın monoqrafiyası böyük maraq doğurur[2].

Müəllif Azərbaycan SSR-də mövcud olan ictimai-siyasi gerçəkliyi, obyektiv şəkildə tədqiq etmiş, o dövrdə cərəyan edən tarixi proseslər fonunda N.Nərimanovun və digər partiya və dövlət xadimlərinin siyasi fəaliyyətinə elmi qiymət vermişdir. Bu baxımdan F.Əhmədovun qeyd olunan əsəri Vətən tarixşünaslığında N.Nərimanovun siyasi irsinin öyrənilməsi prosesinə mühüm töfhədir.

C.Quliyevin monoqrafiyası[3] 1920-1925-ci illərdə Azərbaycan SSR-də bolşevik üsul-idarəsinin formalaşması məsələlərinə həsr edilmiş tədqiqat işləri arasında xüsusi yer tutur. Əsərdə respublikanın ictimai-siyasi və iqtisadi həyatında baş verən mühüm proseslərlə yanaşı, müəllif tərəfindən "görkəmli bolşeviklər" adlandırılan bir sıra nomenklatura nümayəndələrinin siyasi fəaliyyətinə qiymət verilmişdir.

2000-ci ildə Azərbaycan MEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun alimləri tərəfindən qələmə alınan çoxcildlik Azərbaycan tarixi kitabının VI cildini (aprel 1920 – iyun 1941-ci illər) tədqiq edilən dövrün

---

[1] Исмаилов Э.Р. Гасанов Д.П. Во имя правды и справедливости // Коммунист Азербайджана, 1988, №10, с.70.

[2] Əhmədova F.F. Nəriman Nərimanov: ideal və gerçəklik. Bakı: Elm və həyat, 1998, 170 s.

[3] Гулиев Дж.Б. К истории образования второй республики Азербайджана. Баку: Элм, 1994, 164 с.

ictimai-iqtisadi və siyasi tarixinin kompleks şəkildə öyrənilməsi prosesinin başlanğıcı hesab etmək olar. Müəlliflər kitabın giriş hissəsində, haqlı olaraq, qeyd edirdilər ki, «VI cild 20-30-cu illər Azərbaycan tarixinin əsas problemlərinin kompleks halında elmi araşdırılmasına doğru ilk addımdır.

Bu iş, müəyyən mənada, hələ 50-60-cı illərdə müəllif kollektivi tərəfindən başlanıb, üç cildlik «Azərbaycan tarixi» ilə başa çatan çox dəyərli bir işin davamıdır»[1].

Əsərdə 1920-1930-cu illərdə sovet rəhbərliyində, o cümlədən, Azərbaycan SSR-in hakim dairələrində cərəyan edən amansız qarşıdurmalardan bəhs olunur və həmin ixtilafların əsas motivinin hakimiyyət uğrunda mübarizə olduğu vurğulanır: "V.İ.Leninin xəstəliyi kəskinləşəndə, xüsusilə onun vəfatından sonra "silahdaşları" İ.V.Stalin, L.Trotski, Q.Zinovyev, L.Kamenev və başqaları arasında partiyada liderlik, hakimiyyət uğrunda mübarizə qızışdı...

Azərbaycan partiya təşkilatı daxilində də mübarizə gedirdi. Partiyada hakimiyyət uğrunda, respublika həyatının bütün sahələrinə təsirli nüfuza nail olmaq cəhdləri, kəskin "millətçilik" və "hakim şovinist dövlətçilik" təzahürləri inkişaf edirdi. Azərbaycanda rəhbərlikdə, partiya və hökumət işçiləri arasında da belə intriqa, çəkişmə dərinləşirdi...".[2]

Xalqımızın Ümummilli lideri Heydər Əliyevin və Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin çağırış və tövsiyyələrini əldə rəhbər tutan AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun milli tarix konsepsiyasına əsaslanan elmi-tədqiqat işləri müasir Vətən tarixşünaslığına böyük töfhədir. Qeyd olunan elmi araşdırmaların əsas istiqamətlərindən biri sovet dövründə təhrif olunmuş XIX-XX əsrlər Azərbaycan tarixinin yenidən yazılmasından ibarətdir. Tarix İnstitutunda bu istiqamət üzrə yazılmış çoxsaylı əsərlər sırasında Azərbaycan tarixinin 1920-1930-cu illər dövrünə aid olan elmi-tədqiqat işləri xüsusi yer tuturlar.[3]

---

[1] Azərbaycan tarixi: 7 cilddə, VI c., Bakı: Elm, 2000, s.6-7.
[2] Azərbaycan tarixi: 7 cilddə, VI c., s.88-89.
[3] Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı: Təhsil, 2005, 374 s; Mahmudov Y.M Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış: Şimali Azərbaycanda kommunist rejimi (1920-ci il 28 aprel-1991-ci il 18 oktyabr) // Bakı Dövlət Universitetinin xəbərləri. Humanitar elmlər seriyası 2002 №1, s.72-86; Нифталиев И.В Азербайджанская ССР в экспансионистских планах армян (20-ые годы XX века). Баку: Təhsil, 2010, 292 с.; Azərbaycan tarixi arxiv sənədlərində (aprel-dekabr 1920-ci il). II cild. Rusiya Dövlət Sosial-Siyasi Arxivinin sənədləri. Bakı: 2012; Azərbaycan tarixi arxiv sənədlərində (1921-ci il). III cild. Rusiya Dövlət Sosial-Siyasi Arxivinin sənədləri. Bakı: 2013 və s.

Y.Mahmudovun Sovet Azərbaycanın siyasi tarixinə həsr edilmiş əsərləri öz elmi çəkisi, obyektiv və prinsipial yanaşma tərzi baxımından Vətən tarixşünaslığında mühüm yer tuturlar. Müəllif "Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış: Şimali Azərbaycanda kommunist rejimi (1920-ci il 28 aprel – 1991-ci il 18 oktyabr)" adlı məqaləsində[1] 1920-1930-cu illərdə Azərbaycan SSR-də hökm sürən bolşevik rejimi və həmin rejimə qulluq göstərən rəhbər kadrların ümumi və obyektiv xarakteristikasını vermişdir.

Müəllifin verdiyi bu elmi qiymət 1920-1930-cu illərdə ölkəmizə rəhbərlik etmiş şəxslər arasında mövcud olan prinsipsiz münaqişələrin əsl mahiyyətinin aşkarlanması baxımından ciddi maraq doğurur.

1920-1930-cu illərdə Sovet Azərbaycanın siyasi tarixinə dair qələmə alınmış elmi tədqiqatlar arasında E.İsmayılovun 2003-cü ildə işıq üzü görmüş «Hakimiyyət və xalq. Azərbaycanda müharibədən sonrakı stalinizm (1945-1953)» adlı monoqrafiyası xüsusi əhəmiyyət kəsb edir[2]. Adından da göründüyü kimi, əsər Sovet Azərbaycanın müharibədən sonrakı siyasi tarixinə həsr edilsə də, kitabda 1920-1930-cu illərin siyasi tarixinin aktual problemləri – respublikada hakim siyasi qrupun formalaşması, həmin qrupa daxil olan siyasi xadimlərin, xüsusilə, M.C.Bağırovun fəaliyyəti haqqında epizodlara da yer verilmişdir. 1980-ci illərin sonlarından başladığı yolu davam etdirərək, E.İsmayılov bu əsərdə, haqlı olaraq, tarixi şəxsiyyətlərin, o cümlədən, sovet dövrünün siyasi xadimlərinin fəaliyyətinə konyunkturadan kənar, elmi qiymət verməyin zəruriliyini vurğulayır.

F.İbrahimli 1920-1930-cu illərdə Azərbaycan qəzalarında cərəyan edən sosial-siyasi vəziyyətin təhlilinə həsr etdiyi monoqrafiyasında[3] həmin dövrdə kənddə yeridilən siyasətlə bağlı respublikanın rəhbər kadrları arasında mövcud olan fikir ayrılıqları və ixtilaflara elmi qiymət vermiş, bu münaqişələrin, bir çox hallarda, subyektiv səbəblərlə əlaqədar olduğunu vurğulamışdır: «… o zaman bütün bu qruplaşmalar, daxili mübarizə və çəkişmələrin başlıca mənbəyi şəxsi münasibətlər idi».[4]

---

[1] Mahmudov Y.M. Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış: Şimali Azərbaycanda kommunist rejimi (1920-ci il 28 aprel – 1991-ci il 18 oktyabr) // Bakı Dövlət Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, 2002, №1, s.72-86.

[2] Исмаилов Э.Р. Власть и народ. Послевоенный сталинизм в Азербайджане (1945-1953). Баку: Адилоглы, 2003, 342 с.

[3] İbrahimov F.F. Azərbaycan kəndində sosial-siyasi proseslər. Bakı: Mütərcim, 1996, 168 s.

[4] Yenə orada, s.93.

1920-1930-cu illər Azərbaycan tarixinin digər tədqiqatçısı V.Həsənovun monoqrafiyasında[1] respublika həmkarlar təşkilatının inzibati-amirlik dövründəki vəziyyəti və fəaliyyətindən bəhs olunur. Əsərdə, qeyd olunan dövrdə, respublikanın həmkarlar ittifaqları ilə bağlı AK(b)P daxilində baş verən diskussiyalar, AHİŞ rəhbərliyinin siyasi qruplaşmalarda iştirakı, həmkarlar ittifaqı komitələrinin idarə heyətlərinin üzvlərinin partiya orqanlarına tabe edilməsi prosesi və s. elmi şəkildə araşdırılmışdır.

1920-1930-cu illərdə Azərbaycan kəndində həyata keçirilən bolşevik eksperimentlərinə həsr edilmiş samballı bir elmi-tədqiqat işi C.Cəfərov tərəfindən ərsəyə gətirilmişdir[2]. Əsərdə respublikanın o zamankı hakim siyasi elitasının ayrı-ayrı nümayəndələrinin kəndə münasibətdə tutduqları antimilli və antiazərbaycan mövqe elmi cəhətdən analiz edilir. Tədqiqat işində 1930-cu illərin kütləvi repressiyalarına toxunulur və sovet tarixşünaslığının bu məsələdə tutduğu mövqe tənqid olunur. Belə ki, müəlif kütləvi repressiyalara düçar edilmiş sadə insanları və yaradıcı ziyalıları respublikaının rəhbər partiya və dövlət işçiləri ilə eyniləşdirməyin düzgün olmadığını vurğulayır.

M.Əmrahovun ali məktəblər üçün dərslik kimi nəzərdə tutulan kitabında Azərbaycan SSR-də bolşevik rejiminin təşəkkülü, inzibati amirlik şəraitində respublikada milli müstəqillik uğrunda mübarizə, 1920-1930-cu illərdə rəhbər vəzifədə çalışmış bir sıra şəxslərin, o cümlədən, N.Nərimanovun siyasi fəaliyyəti və sair mühüm məsələlər öz əksini tapmışdır[3].

Ş.Məmmədovanın 1920-1930-cu illərdə Azərbaycan SSR-də totalitarizmin və stalinizmin elmi yozumuna həsr edilmiş monoqrafiyasında[4] respublika rəhbərliyi daxilində baş verən siyasi münaqişələr də qiddət mərkəzində saxlanılmışdır. Müəllif həmin toqquşmaların əsl səbəbləri sırasında düzgün olaraq, şəxsi və məişət məsələlərinin (məsələn: M.C.Bağırov-Ə.Qarayev qarşıdurması) xüsusi rol oynadığını qeyd edir.

---

[1] Həsənov V.S. Azərbaycan həmkarlar ittifaqı inzibati-amirlik dövründə (XX əsrin 20-30-cu illəri). Bakı: Elm, 2004, 374 s.
[2] Cəfərov C.M. Azərbaycan kəndi kollektivləşmə illərində (1920-ci illərin sonu – 30-cu illər). Bakı: Elm, 2008, 300 s.
[3] Əmrahov M.İ. XX əsrdə Azərbaycanda milli azadlıq hərəkatı. Bakı: ADPU nəşriyyatı, 2009, 371 s.
[4] Мамедова Ш.Р. Интерпретация тоталитаризма. Сталинизм в Азербайджане. 1920-1930-ых годах. Баку: Адилоглу, 2004, 319 с.

Tədqiq olunan dövr tarixinin hərtərəfli öyrənilməsi baxımından ciddi maraq doğuran əsərlərdən biri də Ş.Qasımova məxsusdur[1]. Müəllif Sovet Azərbaycanında yaradıcılıq ittifaqlarının meydana gəlməsi və fəaliyyəti tarixinə (1920-1930-cu illər) həsr etdiyi monoqrafiyasında o dövrdə ölkəmizdə baş vermiş siyasi prosesləri elmi cəhətdən təhlil etmişdir. Əsərdə respublikanın rəhbər kadrlarının milli-mədəni məsələlərlə bağlı tutduqları mövqe obyektiv şəkildə araşdırılmışdır. Ş.Qasımov, haqlı olaraq, göstərir ki, 1930-cu illərdə Azərbaycan SSR-in ziyalılarına, o cümlədən, rəhbər kadrlara qarşı həyata keçirilən kütləvi repressiyaların o zamankı sovet rəhbərliyindəki bir neçə şəxsin adı ilə bağlanılması düzgün deyildir.

İ.Niftəliyevin «Azərbaycan SSR ermənilərin təcavüzkar planlarında (XX əsrin 20-ci illəri) adlı monoqrafiyasında[2] 1920-ci illərdə respublikanın hakimiyyət orqanlarının erməni əsilli kadrlarla məqsədyönlü şəkildə doldurulması prosesi tarixi faktlar əsasında tədqiq edilmiş, bu yolla erməni şovinist dairələrinin antiazərbaycan fəaliyyətinin əsl mahiyyəti göstərilmişdir.

1920-1930-cu illərdə Azərbaycan SSR-də həyata keçirilən kadr siyasətinə həsr edilmiş maraqlı bir tədqiqat işi A.Muradova tərəfindən qələmə alınmışdır. Tədqiqatçılar və geniş oxucu kütlələri arasında rəğbətlə qarşılanan həmin monoqrafiyada müəllif, Vətən tarixşünaslığında nisbətən az öyrənilmiş bir mövzunu – XX əsrin 20-30-cu illərində Azərbaycanda qadınların dövlət orqanlarına cəlb edilməsi prosesini tədqiq etmişdir[3].

N.Məmmədovun Azərbaycan MİK-nın tarixinə həsr edilmiş monoqrafiyası[4] respublikada sovet dövlət orqanlarının yaranmasına həsr edilib. Əsərdə Azərbaycan SSR-də inzibati-amirlik sisteminin xüsusiyyətlərinə, kütləvi repressiyalar, onların icraçıları və qurbanlarına da xüsusi yer verilib.

Ə.Nəzərlinin 2014-cü ildə nəşr edilmiş kitabı XI ordunun antiazərbaycan fəaliyyətinin elmi şəkildə araşdırılması istiqamətində atılmış mühüm bir addımdır. Monoqrafiyada tədqiq olunan dövrdə

---

[1] Qasımov Ş.M. Azərbaycan SSR yaradıcılıq ittifaqlarının yaranması və fəaliyyəti (1920-30-cu illər). Bakı: Elm, 2007, 340 s.
[2] Нифталиев И.В. Азербайджанская ССР в экспансионистских планах армян (20-ые годы XX века). Баку: Təhsil, 2010, 292 с.
[3] Мурадова А.Дж. Вовлечение женщин Азербайджанской ССР в органы государственной власти (20-30-ые годы XX века). Баку: Нурлан, 2007, 190 с.
[4] Məmmədov N.Z. Azərbaycan dövlətçilik tarixində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin yeri və rolu (1921-1938-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 2012, 508 s.

Azərbaycan SSR-ə rəhbərlik etmiş şəxslərin: N.Nərimanov, Q.Orconikidze, A.Serebrovski, V.Pankratov, Ə.Qarayev, E.Xanbudaqov və digərlərinin siyasi fəaliyyətləri, onlar arasında mövcud olan ziddiyyətli münasibətlər diqqət mərkəzində saxlanılmışdır[1].

1920-1925-ci illərdə Azərbaycan SSR rəhbərliyi daxilində mövcud olan ixtilaflar R.Bayramovanın monoqrafiyasında tədqiq olunmuşdur. Müəllif, məlum səbəblərdən əsas diqqəti N.Nərimanovun siyasi fəaliyyətinə yönəltmiş, respublikanın hakim dairələrində baş verən çəkişmələri, əsasən, ideoloji mübarizə kimi qiymətləndirmişdir[2].

1920-ci illərin ikinci yarısı – 1930-cu illərdə Azərbaycan SSR rəhbərliyi daxilində siyasi qruplaşmaların yaranması və onun respublikanın ictimai-siyasi həyatına təsiri T.Aslanova tərəfindən araşdırılmışdır[3].

Respublikanın sovet nomenklaturasının yaranma tarixi və onun siyasi fəaliyyətinin hərtərəfli tədqiqi baxımından Azərbaycanın milli-demokratik siyasi xadimləri və ziyalılarının (1920-1930-cu illər) məqalə və çıxışları böyük maraq doğurur[4]. 1920-1930-cu illərdə Sovet Azərbaycanında baş verən ictimai-siyasi proseslərin müasiri olmuş həmin şəxslərin bir çoxu aprel çevrilişindən sonra Türkiyəyə mühacirət etmiş və burada «Yeni Kafkasiya», «Azəri Türkü», «Yaşıl Yapraq», «Odlu yurt» dərgilərini, «Bildiriş» qəzetini və s. təsis etmişdilər. Onlar Sovet Azərbaycanında baş verən məlum proseslərə həsr etdikləri məqalələrini bu mətbu orqanlarında dərc etdirir, ölkəmizdə həyata keçirilən bolşevik eksperimentlərinə, əsasən, düzgün qiymət verirdilər.

Rusiya tarixşünaslığında 1920-1930-cu illərdə sovet məkanında baş verən ictimai-siyasi və iqtisadi proseslərin tədqiqinə həsr edilmiş əsərlər ortaq tarix baxımından xüsusi əhəmiyyət daşıyırlar.

---

[1] Назарли А.Э. XI Красная Армия в Северном Азербайджане: оккупация, расправа, бесчинства. Баку: Elm və təhsil, 2014, 392 s.

[2] Bayramova R.M. Azərbaycan rəhbərliyində ixtilaflar və daxili siyasi çəkişmələr (1920-1925-ci illər). Bakı, Elm, 2007, 196 s.

[3] Aslanova T.A. Azərbaycan rəhbərliyində siyasi qruplaşmalar və onun respublikanın ictimai-siyasi həyatına təsiri (XX əsrin 20-ci illərinin ikinci yarısı – 30-cu illər): Tarix elm. nam... dis. avtoref. Bakı, 2012, 30 s.

[4] Məmmədzadə M.B. Köylü hərəkatı. Lenin milli siyasəti. Bakı: 2007, 144 s.; Məmmədzadə M.B. Moskvanın töhməti // Odlu yurt, 1929, №2, s.79-80; Məmmədzadə M.B. Müsavatçılar və kommunistlər // Odlu yurt, 1929, №2, s.51-53; Məmmədzadə M.B. Ögreten bir müsibət // Odlu yurt, 1929, №3, s.84-99; Rəsulzadə M.Ə. Bolşeviklərin Şərq siyasəti // Gənclik, 1991, №7, s.2-7; Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı: Elm, 1991, 82 s.

Məlum səbəbdən Azərbaycan sovet tarixşünaslığı üçün xas olan bütün xüsusiyyətlər Rusiya sovet tarixşünaslığı üçün də xarakterik olmuşdur[1]. Bu əsərlərdə də sovet sisteminin hakim sinfi – kommunist nomenklatura haqqında heç bir məlumata rast gəlinmir, hakim dairələrdə gedən kəskin mübarizə haqqında yalnız fraqmentar, izafi dərəcədə mücərrəd və əsasən də, təhrif edilmiş epizodlara yer verilir.

Sovet tarix elminin kanonları çəriçivəsindən kənara çıxan, Rusiya tarixşünaslığında, birbaşa, hakim idarəedici sinfə - sovet nomenklaturasına və onun fəaliyyətinə həsr edilmiş yeganə fundamental əsər M.Voslenskiyə məxsusdur[2].

M.Voslenskinin qeyd olunan kitabı durğunluq dövrünün ən qatı çağlarında – 1970-ci ildə SSRİ-də yazılmış, sonralar bir sıra xarici ölkələrdə (Avstriya, ABŞ) nəşr olunmuşdur.

Əsər konkret – tarixi deyil, daha çox ümumi-politoloji xarakter daşısa da, sovet siyasi tarixinin tədqiqatçıları üçün də böyük əhəmiyyət daşıyır.

M.Voslenski bu əsərində əsas diqqəti kommunist nomenklaturanın doğuluşu və formalaşması dövrünə (1920-1930-cu illər) deyil, daha çox onun yetkinlik və hökmranlıq dövrünə (1940-cı illərin ikinci yarısından sonrakı dövr) yönəltmişdir. Bu hal, heç şübhəsiz, qeyd olunan dövrdə, xüsusən, əsərin meydana çıxdığı 1970-1980-ci illərdə kapitalist və sosialist sistemləri arasında gedən "soyuq müharibənin" təsiri ilə izah oluna bilər.

M.Voslenskinin qeyd olunan əsəri Rusiya və postsovet məkanın digər respublikalarının tarixşünaslığında sovet nomenklaturasına həsr edilmiş tədqiqatlar içərisində öz liderliyini bu gün də qoruyub saxlamaqda davam edir.

1980-ci illərin ikinci yarısından etibarən Rusiya tarixşünaslığında sovet dövrü, xüsusilə, 1920-1930-cu illər tarixinin çox mühüm

---

[1] Ваганов Ф.М. Правый уклон в ВКП(б) и его разгром (1928-1930 годах). М.: Политиздат, 1977, 285 с.; Гимпельсон Е.Г. «Военный коммунизм»: политика, практика, идеология. М.: Мысль, 1979, 296 с.; Изменение социальной структуры народов СССР. Вопросы истории и историографии социальных преобразований 20-30-х годов. М.: Издательство МГУ, 1982, 128 с.; История исторических наук СССР. Советский период. М.: Наука, 1980, 733 с.; История Коммунистической партии Советского Союза. 7-ое издание. М.: Политиздат, 1984, 784 с.; История СССР эпохи социализма. / Под ред. Ю.С.Кукушкина. М.: Высшая школа, 1985, 479 с.

[2] Восленский М.В. Номенклатура – господствующий класс Советского Союза. М.: МП «Октябрь» «Советская Россия», 1991, 617 с.

problemlərinə yenidən baxılması prosesinə start verildi və ölkədə inzibati-amirlik sisteminin yaranması, stalinizmin sosial-siyasi, iqtisadi və mədəni-mənəvi mahiyyəti, ayrı-ayrı sovet rəhbərləri, hakimiyyətdaxili mübarizə və digər məsələlərlə bağlı tədqiqatlar işıq üzü görməyə başladı.[1]

Bu əsərlərin bir çoxunda araşdırılan dissertasiya mövzusuna birbaşa və ya dolayısı ilə aidiyyəti olan mühüm epizodlara və faktlara yer verilməsi həmin tədqiqatların elmi dəyərini daha da artırır.

Lakin qeyd olunan əsərlərin bir çoxu üçün xarakterik olan əsas cəhət onların keçən əsrin əllinci illərinin ənənələrinə sadiq qalmaları, xruşyovçuluq buxovlarından azad ola bilməmələri olmuşdu. Məsələn, həmin tədqiqatların müəllifləri stalinizmin real köklərini araşdırmır, bu sistemin Rusiyanın özünəməxsus tarixi inkişafının məhsulu kimi meydana çıxması faktını qeyd etmir, 1920-1930-cu illərdə sovet Rusiyasında baş verən prosesləri yalnız bir şəxsin – Stalinin ayağına yazmağa cəhd edirdilər.

1990-cı illərin ikinci yarısı – 2000-ci illərin başlanğıcından etibarən Rusiya tarixinin sovet dövrünün öyrənilməsinə həsr edilmiş tədqiqatların təhlili onu deməyə əsas verir ki, bu sahədə ciddi konseptual dəyişikliklər baş verməkdədir. Artıq həmin tədqiqatların metodoloji əsaslarını marksizm-leninizm klassiklərinin əsərlərində irəli sürülən totalitar nəzəriyyə deyil, demokratik nəzəriyyələr və müddəalar təşkil edir. Bu əsərlərdə sovet dövrünə aid olan bir sıra problemlərə, o cümlədən, hakimiyyətdaxili mübarizə məsələsinə yeni baxış sərgilənir.

Belə ki, həmin tədqiqatlarda bu qarşıdurma və intriqaların əsas motivinin ideoloji məsələ deyil, məhz hakimiyyət uğrunda mübarizə

---

[1] Медведев Р.А. К суду истории. О Сталине и сталинизме. М.: Время, 2011, 656 с.; Волкогонов Д.А. Триумф и трагедия. Политический портрет И.В.Сталина // Октябрь, 1988, №12, с.46-166; Холодков В.Г. Государственный социализм и образование нового класса в СССР // Вопросы экономики, 1992, №1, с.126-135; Широкорад Л.Д. В.И. Ленин и формирование основ командно-административной системы // Вопросы экономики, 1991, №12, с.97-113; Рогачевская А.С. Как составлялся план первой пятилетки // Вопросы истории. 1993, №8, с.149-155; Антонов-Овсеенко А.В. Карьера палача // Коммунист Азербайджана, 1989, №8, с.73-83; Антонов-Овсеенко А.В. Сталин и его время // Вопросы истории, 1989, №1, с.82-104; Топольский В.Д. Гибель Фрунзе // Вопросы истории, 1993, №6, с.95-103; Медушевский А.Н. Демократия и тирания в новейшее время // Вопросы философии, 1993, №10, с.3-23.

məsələsi olduğu xüsusilə vurğulanır[1]. Əlamətdar haldır ki, qeyd olunan tezis yalnız ayrı-ayrı tədqiqatçıların əsərlərində deyil, eyni zamanda, müəlliflər kollektivi tərəfindən yazılmış, tarix elminin inkişafında xüsusi mərhələ hesab edilən dərsliklərdə də yer almışdır. Bu dərsliklər arasında hətta, orta məktəb dərsliklərin mövcudluğu xüsusi məna kəsb edir[2]. Həmin əsərlərin təhlili onu deməyə əsas verir ki, ən müasir Rusiya tarixşünaslığında tarixi-konfliktoloji problemlərin öyrənilməsi prosesində əsas metodologiya kimi marksizm deyil, ondan daha mükəməl nəzəriyyə olan makiavellizm götürülür.

Makiavellizm nəzəriyyəsinin əsası italyan siyasətşünası Nikolo Makiavelli (1469-1527) tərəfindən qoyulmuşdur. N.Makiavellinin son 500 il ərzində dünyanın görkəmli siyasətçiləri və dövlət rəhbərlərinin stolüstü kitabına çevrilmiş əsərlərində, xüsusilə, onun "Hökmdar" adlı kitabında[3] ən qədim dövrlərdən XVI əsrin əvvəllərinə qədər dünyada baş vermiş siyasi proseslər araşdırılmış və bəşər tarixinin, əslində, hakimiyyət uğrunda mübarizə tarixi olduğu qənaətinə gəlinmişdir. Hakimiyyət ustası və böyük intriqan – N.Makiavelli həmin əsərində hakimiyyətə yiyələnməyin və onu qoruyub saxlamağın üsullarından və metodologiyasından bəhs edir.

N.Makiavellinin hakimiyyət haqqında nəzəriyyəsi onun möhtəşəm davamçıları: V.Pareto (1848-1923), Q.Moska (1854-1941), R.Mixels (1876-1936)[4] və digərləri tərəfindən cilalanaraq təkmilləşdirilmişdir. Məhz bu şəxslərin elmi-nəzəri fəaliyyəti nəticəsində XX əsrin siyasi sosiologiya elminin ən böyük kəşfləri edildi: elitalar, hakim idarəedici siniflər haqqında nəzəriyyə, "oliqarxiyanın dəmir qanunu" meydana çıxdı. Dissertasiyanın

---

[1] Глазьев С.Ю. «Продуктивная» и «правящая» элиты / Политические элиты. Политический ежегодник. М.: ОЛМА-ПРЕСС, 2003, с.12-13; Земцов Б.Н., Шубин А.В., Данилевский И.Н. История России. СПб: Питер, 2013, 416 с.; Кацва Л.А. История России. Советский период (1917-1991). М.: РГУ, 2003, 412 с.; Пискун Е.Е. Термидор в СССР. Идеи Л.Д.Троцкого и советская действительность в 1926-1980-х годах. Рязань: Русское слово, 1997, 120 с.; Ратковский И.С., Ходяков М.В. История Советской России. СПб.: Лань, 2001, 416 с.; Рыбас С.Ю. Рубежи российских элит / Политическая элита. Политический ежегодник. М.: ОЛМА-ПРЕСС, 2003, с.9-12.

[2] Кацва Л.А. История России. Советский период (1917-1991). М.: РГУ, 2003, 412 с.

[3] Makiavelli N. Hökmdar. Bakı: Qanun nəşriyyatı, 2016, 152 s.

[4] Pareto V. Trattato di sociologia generale. Milano: Comunita, 1964 v 1-2, v1- 877 p.; v2- 1055 p.; Mosca G. The Ruling Class. New York and London: McGraw Hill, 1939, 573 p.; Michels R. Political Parties: A sociological study of the oligarchical tendencies of modern democracy. Ontario: Batoche Books, 2001, 266 p.

elmi-nəzəri əsasını təşkil edən bu kəşflər həm proletariat diktaturası haqqında təlimi, həm də formal demokratiya haqqında illuziyaları ifşa etdi.

Müasir qərb tarixşünaslığında 1920-1930-cu illərdə sovet məkanında, o cümlədən, Azərbaycan SSR-də baş verən tarixi proseslər, SSRİ-nin yaranması, milli məsələ, milli təmayülçülük, sovet müstəmləkə sistemi və onun əsasları- bolşevizm, stalinizm və totalitarizm, Böyük Terror və sair məsələlərə xüsusi diqqət ayrılmışdır. Bu dəyərli əsərlər dissertasiya mövzusunun hərtərəfli araşdırılması prosesində mühüm rol oynamışlar[1].

Gənc yaşlarından ÜK(b)P MK-nın nomenklaturası sıralarına daxil olan, məşhur "partokratiya" termininin müəllifi, çeçen əsilli Ə.Avtorxanovun (1908-1997) "Stalin və sovet kommunist partiyası: hakimiyyət texnologiyalarının tədqiqi" adlı əsəri[2] stalinizmin elmi təhlili baxımından böyük əhəmiyyət kəsb edir. 1942-ci ildə Almaniyaya emiqrasiya edən Ə.Avtorxanov ömrünün sonuna qədər həmin ölkədə yaşamış, onun qeyd olunan əsəri 1959-cu ildə ABŞ-da, ingilis dilində nəşr edilmişdir. 1959 və 1976-cı illərdə Ə.Avtorxanovun həmin əsəri "Samizdat" vasitəsilə SSRİ-də çap edilib və böyük populyarlıq qazanıb.

Bu əsər 1991-1993-cü illərdə "Voprosı istorii" jurnalında da dərc olunub.

Ümumsovet siyasi texnologiyalarının elmi təhlilinə həsr edilmiş bu maraqlı tədqiqqat işində 1920-1930-cu illərdə və sovet hakimiyyətinin sonrakı illərində SSRİ-də baş verən siyasi proseslərin orijinal yozumu verilir, İ.Stalin üsul-idarəsinin formalaşması və fəaliyyət prinsipləri, əsasən obyektiv şəkildə araşdırılır, o dövrün aparıcı siyasi xadimləri, o cümlədən Azərbaycan SSR-in nomenklatura elitasının A.Mikoyan, L.Mirzəyan, R.Axundov, Q.Musabəyov, N.Nərimanov, M.Qədirli və s. kimi nümayəndələri haqqında məlumatlar verilir.

---

[1] Pipes R. The formation of the Soviet Union: communism and nationalism. 1917-1923. Cambridge: Harward University Press, 1997, 353 p.; Yılmaz H. The Soviet Union and the construction of Azerbaijani National İdentity in the 1930's. http:/www.dx.doi.org/10.1080/00210862.2013.784521; Conquest R. Great Terror: A Reassessment. New York: Oxword University Press, 1990, 292 p.; Altstadt A. The Azerbaijani Turks, Power and identity under Russian rule. Stanford: Hoover Institution Press, 1992, 331 p.; Simon G. Nationalism and policy toward the Nationalities in the Soviet Union: from totalitarian dictatorship to post-stalinist society, Boulder, Westview Press, 1991, 483 p. etc.

[2] Avtorkhanov A.Q. Stalin and Soviet Communist Party: A Study in the Thecnology of Power. New York: Pleager, 1959, 379 p.

Böyük Amerika tarixçisi və siyasətşünası Teodor Draperin (Dubinski) (1912-2006) əsərləri sovet sisteminin ümumi cəhətlərinin öyrənilməsi baxımından diqqətəlayiqdir. T.Draper ABŞ-da kommunist hərəkatının tarixinə həsr etdiyi məşhur əsərində[1] 1920-1930-cu illərdə Sovet məkanında cərəyan edən siyasi proseslərin xarakteristikasına da xüsusi yer ayrılmışdır. Müasiri və iştirakçısı olduğu həmin tarixi hadisələrə, əsasən, obyektiv qiymət verən müəllif SSRİ rəhbərliyində baş verən ixtilafları, birmənalı olaraq, hakimiyyət uğrunda mübarizə adlandırır.

Amerika tarixçilərindən T.Svyataxovski və F.Kazımzadənin[2] əsərlərində Cənubi Qafqazda, o cümlədən, Azərbaycanda 1920-ci ilin aprel çevrilişi ərəfəsində və bolşevik rejiminin ilk aylarında baş verən tarixi hadisələr, əsasən, obyektiv şəkildə araşdırılır. Bu isə, öz növbəsində, qeyd olunan dövrdə regionda hökm sürən siyasi şəraitin düzgün qiymətləndirilməsi işində sovet dövrü tədqiqatçıları üçün mühüm əhəmiyyət kəsb edir.

Cənubi Qafqazda, o cümlədən, Azərbaycanda stalinizmin bərqərar olması və onun nəticələri haqqında yazılmış samballı bir tədqiqat işi Humboldt qardaşları adına Berlin Universitetinin professoru Q.Baberovskiyə məxsusdur[3].

Müəllifin həyat yoldaşına ithaf etdiyi kitabda Azərbaycan SSR-də milli-kommunizm, N.Nərimanov və milli təmayül, M.C.Bağırov rejimi və Azərbaycanda həyata keçirilən Böyük terror, 1929-1933-cü illərdə baş vermiş təmizləmələr və klanlararası mübarizə və digər problemlərin elmi təhlilinə geniş yer verilmişdir.

Yuxarıda qeyd edilənlərlə bərabər, tədqiq edilən mövzunun tarixşünaslığının mövcud səviyyəsi bu istiqamətdə daha ciddi elmi-tədqiqat işlərinin aparılmasına böyük ehtiyac olduğunu aşkar etdi və onun aktuallığını müəyyənləşdirdi.

**Tədqiqatın məqsəd və vəzifələri.** Ölkəmizin yaxın keçmişinin siyasi tarixində (1920-1930-cu illər), məlum səbəblərdən, mövcud olan "ağ ləkələr"in, hələ də, tam şəkildə silinməməsi bu istiqamət üzrə ixtisaslaşmış tədqiqatçılar qarşısında çox mühüm vəzifələr qoyur. Həmin problemlər

---

[1] Draper T. The Roots of American Communism. New Brunswick (U.S.A.) and London (U.K.): Transaction Publishers, 2003, 499 p.

[2] Svitochovski T. Russian Azerbaijan 1905-1920. Cambridge, UK, 1989, 373 p.; Kazemzadeh F. The struggle for Transcaucasia (1917-1921). New-York, Philosophical library Oxford: George Ronald, USA, 1951, 356 p.

[3] Баберовский Йорг. Враг есть везде. Сталинизм на Кавказе. М.: Российская Политическая Энциклопедия (Росс ПЭМ), 2010, 855 с.

Sovet Azərbaycanının o zamankı siyasi rəhbərliyinin formalaşması və onun hakimiyyətdaxili mübarizə proseslərində iştirakı tarixi ilə sıx surətdə bağlıdır. Bu səbəbdən də:

– mövzunun elmi cəhətdən araşdırılma səviyyəsini müəyyənləşdirmək, bu sahədə mövcud olan uğur və nöqsanlara qiymət vermək;

– 1920-1930-cu illərdə Azərbaycan SSR-in hakim siyasi qrupu rolunda çıxış edən sovet nomenklaturasının formalaşması prosesini araşdırmaq;

– respublikada stalinizmin dayağı olan fövqəltəsisatın – sovet nomenklaturasının tərifini vermək, onun elmi təsnifatını aparmaq, səviyyələrini müəyyənləşdirmək;

– respublikanın hakim siyasi qrupunun kəmiyyət və keyfiyyət göstəricilərini araşdırmaq, bu məsələlər üzrə ümumiləşdirmələr aparmaq;

– həmin dövrdə ölkəmizi idarə edən şəxslər arasında mövcud olan və araşdırılan mövzunun əsas aspektini təşkil edən xroniki və prinsipsiz çəkişmələrin tarixini komplkes şəkildə təhlil etmək, onların əsl mahiyyətini üzə çıxarmaq;

– 1920-1930-cu illərdə respublika rəhbərliyində cərəyan edən hakimiyyətdaxili mübarizə faktorunun sovet nomenklaturasının formalaşması prosesində oynadığı rolu araşdırmaq;

– qeyd olunan zaman ərzində Azərbaycan SSR rəhbərliyində təmsil olunan əsas siyasi fiqurlar ətrafında məqsədyönlü şəkildə yaradılmış mif və əfsanələrə aydınlıq gətirmək, onların siyasi fəaliyyətinə obyektiv qiymət vermək;

– mövzu ilə bağlı tədqiqata cəlb edilmiş tarixi mənbələri: arxiv materiallarını, dövri mətbuatı və s. mənbələri toplamaq, onları mənbəşünaslıq baxımından araşdırmaq və həmin qaynaqlarda əks olunan qiymətli məlumatları elmi dövriyyəyə daxil etmək;

– mövzu üzrə təhlil edilən proseslərin ölkəmizin və xalqımızın tarixində buraxdığı dərin və faciəvi izləri yenidən dəyərləndirmək;

– araşdırılan məsələlərin elmi təhlili prosesində sovet dövrü üçün xarakterik olan ideoloji konsepsiyadan imtina edərək tərəfsiz və qərəzsiz yanaşma tərzini əsas götürmək;

– bəzi bolşevik liderlərinin bütləşdirilərək “fövqəlinsan” kimi təqdim edilməsi istisna olmaqla, “zəhmətkeş kütlələr”, “partiya” və sair məfhumlar arxasında gizlənərək konkret insanların tarixi proseslərdə oynadığı rolu, onların istək və ambisiyalarını nəzərə almayan, ayrı-ayrı şəxsləri ümumi Sistemin “kiçik sosial vintləri” kimi təqdim edərək

“şəxsiyyətlərsiz tarix” konsepsiyasından çıxış edən sovet tarixşünaslığından fərqli olaraq araşdırılan mövzunu “insan simalı tarix” nəzər nöqtəsindən tədqiq etmək;

– müasir qloballaşmanın çağırışlarına cavab olaraq 1920-1930-cu illərdə Azərbaycan SSR-də cərəyan edən siyasi hadisə və davranışları ümumsovet və ümumdünya tarixi proseslərinin tərkib hissəsi kimi araşdırmaq, onların oxşar və fərqli cəhətlərini göstərmək və s. tədqiqat işinin əsas məqsəd və vəzifələri sırasında yer alırlar.

**Tədqiqatın mənbə bazası.** 1920-1930-cu illərdə Azərbayan SSR-in sovet nomenklaturasının təşəkkülü və nomenklaturadaxili ixtilafların tarixinin kompleks şəkildə öyrənilməsi üçün əsas baza rolunu tədqiq edilən mövzuya aid olan arxiv materialları oynamışdır. Bu baxımdan, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin 1, 2, 12, 153, 268, 456, 609 saylı fondlarında mühafizə edilən tarixi sənədlər xüsusi əhəiyyət kəsb edirlər. Belə ki, həmin fondlarda 1920-1930-cu illərdə keçirilmiş Azərbaycan Kommunist (bolşeviklər) partiyası (AK(b)P) qurultaylarının, Mərkəzi Komitənin (MK) plenumlarının, AK(b)P MK Rəyasət Heyətinin (Bürosunun) iclaslarının, Bakı Komitəsinin (BK) konfrans və plenumlarının, respublika və Bakı partiya təşkilatları aktivlərinin birgə iclaslarının və digər bu kimi toplantıların stenoqram və protokolları saxlanılır. Həmin fondlarda qorunan bu qiymətli materiallarda respublikanın kommunist nomenklaturasının formalaşması prosesi, onun keyfiyyət və kəmiyyət göstəriciləri, hakimiyyətdaxili konfliktlər və s. kimi mühüm məsələlər öz əksini tapmışdır. Qeyd olunan materialların böyük əksəriyyəti son illərə qədər məxvi və tam məxvi qriflər altında mühafizə olunmuş, həmin tarixi sənədlərin qorunduğu fondların qapıları tədqiqatçıların üzünə bağlı qalmışdır. Dissertasiya mövzusu üzrə tədqiqat işlərinin aparılması prosesində 1920-1930-cu illərdə Azərbaycan SSR-in partiya, dövlət və dövlət idarəetmə orqanlarına rəhbərlik etmiş siyasi xadimlərin: N.Nərimanov, M.C.Bağırov, Ə.Qarayev, S.Kirov, R.Axundov, V.Polonski, M.Nərimanov, L.Mirzəyan, H.Sultanov, M.D.Hüseynov, D.Bünyadzadə, M.T.Yaqubov, A.Akopov, H.Ağaverdiyev, S.M.Əfəndiyev və s. şəxsi fondları əvəzsiz mənbə rolunu oynamışdır.

Qeyd olunan şəxsi fondlarda respublika sovet nomenklaturasının ayrı-ayrı nümayəndələrinə məxsus olan və müxtəlif illərdə tərtib olunan şəxsi vərəqlər və tərcümeyi-hallar, şəxslərin təyinatı və tutduğu vəzifədən azad olunması, cəzalandırılması, əfv edilməsi, mükafatlandırılması və digər məsələlərlə əlaqədar partiya və dövlət orqanlarının qərarlarından çıxarışlar, repressiyaya məruz qalmış siyasi xadimlərin işi üzrə respublika partiya və

Xalq Daxili İşlər Komissarlığı (XDİK) orqanlarının tərtib etdiyi istintaq materialları, rəsmi və ya qeyri-rəsmi məktublar və şəkillər tədqiq olunan mövzunun mənbəşünaslıq bazasının möhkəmləndirilməsində xüsusi əhəmiyyət daşıyırlar. Bu sənədlər arasında şəxsi vərəqlər və tərcümeyi-hallar dövlət xadimlərinin siyasi portretlərinin yaradımasında müstəsna rola malikdirlər.

Şəxsi vərəqlərdə nomenklatura nümayəndələrinin anadan olduğu tarix, yer, təhsil səviyyəsi, milli mənsubiyyəti, sosial mənşəyi, partiya, inqilabı və hərbi stajı, aylıq maaşı, 1917-ci ildən sonrakı iş və xidməti stajı və s. kimi mühüm məlumatlar öz əksini tapırdı.

Dissertasiyanın yazılması prosesində Azərbaycan Respublikası Dövlət Arxivinin 970, 1046, 1061, 2775, 2838, 2878, 2894 və s. fondlarında mühafizə edilən tarixi sənədlər 1920-ci ilin aprelindən əvvəl və sonra Şimali Azərbaycanda baş verən sosial-siyasi problemlərin elmi-tədqiqatı prosesində tutarlı mənbə rolunu oynamışdırlar.

Dissertasiya işində Rusiya Dövlət Sosial-Siyasi Arxivinin sənədlərindən də geniş şəkildə istifadə edilmişdir.[1]

Arxiv materialları və digər dərc edilməmiş mənbələr üçün xarakterik olan bir çox xüsusiyyətlər dövri mətbuat üçün də əlamətdardır. Bu səbəbdən də, araşdırılan mövzunun elmi-tədqiqatı prosesində 1920-1930-cu illərin rəsmi mətbuat orqanlarında – «Pravda», «İzvestiya», «Zarya Vostoka», «Bakinskiy Raboçiy», «Kommunist» qəzetlərində, «Bolşevik Zaqafqaziya» jurnalında və s. dərc edilmiş materiallardan geniş şəkildə istifadə edilmişdir. Həmin materiallar arasında tədqiq edilən dövrdə respublikanın yüksək vəzifəli şəxslərinin tərcümeyi-halı, siyasi fəaliyyəti və karyerası, yeni vəzifəyə təyinatı və ya tutduğu postdan kənarlaşdırılması barədə partiya və dövlət orqanlarının qərarları və s. yer almışlar. Həmin qəzet və jurnalların səhifələrində 1920-1930-cu illərdə respublikanın hakim siyasi qrupu daxilində baş verən siyasi çəkişmə və debatlar, müxtəlif siyasi qruplaşmaların yaranması, onların tərkibi və liderləri barədə rəsmi məlumatlara rast gəlinir.

Məlum səbəblərdən, 1950-ci illərin ortalarından başlayaraq, adları çəkilən mətbuat orqanlarında, ardıcıl olaraq, respublika nomenklaturasının ayrı-ayrı aparıcı nümayəndələri haqqında materiallar dərc olunmağa

---

[1] Azərbaycan tarixi arxiv sənədlərində (aprel-dekabr 1920-ci il). II cild. Rusiya Dövlət Sosial-Siyasi Arxivinin sənədləri. Bakı: 2012; Azərbaycan tarixi arxiv sənədlərində (1921-ci il). III cild. Rusiya Dövlət Sosial-Siyasi Arxivinin sənədləri. Bakı: 2013 və s.

başlamışdır. Əsasən bəraət xarakterli həmin materiallar 1920-1930-cu illərdəki analoqlarına nisbətən, daha çox, rəsmi və birtərəflidirlər.

Müstəqillik dövründə söz və mətbuat azadlığı prinsipinin bərqərar olması nəticəsində yaranmış geniş imkanlardan bəhrələnən bir sıra mətbuat orqanları öz səhifələrində Azərbaycan SSR-in 1920-1930-cu illər siyasi tarixinə dair məqalə və materiallara əhəmiyyətli yer ayırmışlar. Müxtəlif nöqteyi-nəzərləri özündə əks etdirən həmin araşdırmalar Vətən tarixinin ən ziddiyyətli və faciəli bir dövründə baş vermiş siyasi proseslərin və həmin proseslərə rəhbərlik edən şəxslərin fəaliyyətinin yenidən qiymətləndirilməsi baxımından əhəmiyyətlidirlər. Lakin həmin araşdırmaların bir çoxu üçün tarixi proseslərə və şəxsiyyətlərə səthi və qeyri-professional yanaşma tərzi xarakterikdir.

Bütün bunlarla yanaşı, dissertasiya mövzusunun mənbə bazasının analizi 1920-1930-cu illərdə Azərbaycan SSR-in siyasi tarixinin, xüsusilə, kommunist nomenklaturanın formalaşması və hakimiyyətdaxili mübarizə prosesinin elmi təhlili üçün geniş imkanların mövcudluğunu aşkara çıxardı. Böyük əksəriyyəti bu günə qədər də dərc edilməmiş həmin qiymətli tarixi mənbələr dissertasiya mövzusunun daha dolğun və obyektiv şəkildə araşdırılması prosesində əsas istinad nöqtəsinə çevrildilər.

**Tədqiqatın metodoloji əsası.** Dissertasiyanın metodoloji əsasını tarixilik, sistemlilik və obyektivlik kimi elmi prinsiplər təşkil edir.

Tədqiq olunan mövzunun kompleks şəkildə araşdırılması prosesində induktiv-deduktiv, tarixi-konfliktoloji, tarixi-genetik, tarixi-dialektik, xronoloji, müqayisəli, məntiqi və tekstoloji təhlil metodlarından geniş şəkildə istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Bütün elmlər üçün xas olan yenilik axtarışı prinsipi tarix elmi üçün də xarakterikdir. Cəmiyyətin keçmişinə müasir dövr prizmasından baxan tarix elminin bu prinsipi tədqiq olunan mövzu üzrə aparılan elmi-tədqiqat prosesi üçün də hakim prinsip rolunda çıxış etmişdir. Belə ki, mövzunun müasir dövrün tələblərinə uyğun şəkildə öyrənilməsi, bu sahədə mövcud olan bir sıra qaranlıq məqamlara aydınlıq gətirilməsi baxımından yeni mənbə və materiallar aşkar edilərək elmi dövriyyəyə buraxılmışdır. Mənbəşünaslıq baxımından təhlil edilərək mövzunun yazılması prosesində geniş şəkildə istifadə edilən çoxsaylı arxiv materiallarının böyük əksəriyyəti ilk dəfə olaraq elmi-tədqiqat prosesinə cəlb edilmişdir. Tədqiqat işində irəli sürülən hər bir yeni elmi tezis və mülahizələr məhz bu qiymətli tarixi mənbələrə əsaslanmışdır.

Vətən tarixşünaslığında, ilk dəfə olaraq:

– Azərbaycan SSR-in sovet nomenklaturası fenomeni (1920-1930-cu illər) elmi-tədqiqat obyektinə çevrilir, milli tarixşünaslıqda yeni bir istiqamətin əsası qoyulur;

– 1920-1930-cu illərdə Azərbaycan SSR-ə rəhbərlik etmiş hakim siyasi qrupun – sovet nomenklaturasının tərifi verilir, bu mühüm təsisatın respublikanın siyasi sistemində tutduğu yer və oynadığı rol araşdırılır;

– respublikada sovet nomenklaturanın formalaşması prosesində əsas sənədlər bazası rolu oynamış direktiv sənədlər aşkara çıxarılaraq elmi cəhətdən tədqiq edilir;

– bolşevik rejimi tərəfindən Azərbaycan SSR-də tətbiq edilən (1920-1930-cu illər) müstəmləkəsi və totalitar təyinat sisteminin yaranması prosesi araşdırılır və həmin sistemin səviyyələri müəyyənləşdirilir;

– Azərbaycan SSR-in sovet nomenklaturasının formalaşma mexanizmi və təşəkkülü prosesi təhlil edilir, onun təsnifatı aparılır;

– sosial-siyasi qrup olan respublika kommunist nomenklaturasının kəmiyyət və keyfiyyət göstəriciləri: sayı, milli tərkibi, təhsil və yaş səviyyəsi, sosial mənşəyi, cinsi mənsubiyyəti tədqiqat obyektinə çevrilir;

– Azərbaycanda sovet nomenklaturasının formalaşması prosesində 1920-1930-cu illərdə respublikada həyata keçirilmiş irəlisürmə kampaniyalarının yeri və əhəmiyyəti araşdırılır;

– sovet nomenklaturası və onun ayrı-ayrı nümayəndələrinin Azərbaycanda müstəmləkəçi bolşevik rejiminin bərqərar olmasında və möhkəmlənməsində oynadığı rola yeni nəzər nöqtəsindən baxılır;

– 1920-1930-cu illərdə Sovet Azərbaycanın kommunist rəhbərliyi daxilində baş vermiş hakimiyyət uğrunda mübarizənin tarixi kompleks şəkildə öyrənilir: tədqiqat işi, xronoloji baxımdan, bu mövzu üzrə yazılmış tədqiqatlara nisbətən daha geniş dövrü əhatə edir, araşdırılan tarixi proseslərin ardıcıl və müfəssəl təhlilini verir;

– hakimiyyət və onun uğrunda mübarizənin sovet nomenklaturasının əsas mövcudluq forması kimi təzahür etməsi formulu irəli sürülür və elmi cəhətdən əsaslandırılır;

– 1920-1930-cu illərdə baş vermiş hakimiyyətdaxili çəkişmələrin mərhələləri göstərilir, onların xüsusiyyətlərinə elmi qiymət verilir;

– qeyd olunan dövrdə Azərbaycan SSR-in hakim dairələrində cərəyan edən ixtilaflar bütün sovet məkanında hakimiyyət uğrunda gedən mübarizənin tərkib hissəsi kimi araşdırılır;

– bu dövrdə cərəyan edən hakimiyyətdaxili çəkişmələrin motivlərinə dair yeni baxış irəli sürülür;

– həmin çəkişmələrin real rəhbərliyi və hərəkətverici qüvvələrinə yeni münasibət bildirilir;

– "milli təmayül"ün əsl mahiyyəti araşdırılır, həmin qruplaşmanın Azərbaycan SSR-i real olaraq idarə edən hakimmillətçi-şovinist qaragüruh tərəfindən öz məqsədləri üçün istismar etməsi tezisi irəli sürülür və tarixi faktlarla sübut olunur;

– respublika nomenklaturasının məruz qaldığı kütləvi repressiyalar (1936-1938): a) 1920-1930-cu illərdə Azərbaycan SSR-in hakim siyasi qrupu daxilndə baş verən xroniki və prinsipsiz çəkişmələrin məntiqi davamı və nəticəsi kimi təhlil edilir;

b) həmin dövrdə sovet məkanında və beynəlxalq aləmdə mövcud olan siyasi radikallaşma və qlobal müharibə təhlükəsi ilə əlaqələndirilir.

**Dissertasiyanın elmi-praktik əhəmiyyəti.** Tədqiqat işində 1920-1930-cu illərdə Sovet Azərbaycanın siyasi tarixinin çox mühüm bir problemi – respublikanın rəhbərliyi və onun daxilində baş verən prinsipsiz qarşıdurmalar məsələsi tarixi faktlar əsasında araşdırılıb və iri həcmli bir əsər ərsəyə gətirilib

Əsər:

- tədqiq edilən mövzu ilə bağlı Azərbaycan tarixşünaslığında mövcud olan boşluqların doldurulması;

- Vətən tarixinə dair ümumiləşdirilmiş elmi-tədqiqatların aparılması zamanı istifadə edilməsi;

- dərsliklərin, dərs vəsaitlərinin, ölkə tarixinə həsr edilmiş monoqrafiya və bu qəbildən olan digər tədqiqatların yazılması prosesində faydalı olması;

- ölkənin ali təhsil müəssisələrinin ictimai-humanitar fakültələrinin müəllim və tələbələrinin dissertasiya işindən bir dərs vəsaiti kimi yararlanması;

- sovet sisteminin və ona rəhbərlik etmiş hakim siyasi qrupun (1920-1930-cu illər) əsl mahiyyətinin üzə çıxarılması, o dövr üzrə cəmiyyətimizdə mövcud olan bir çox suallara cavab verilməsi;

- mövzu ilə bağlı televiziya və radio proqramlarının hazırlanması prosesində istifadə edilməsi;

- beynəlxalq auditoriya, xüsusilə, dünya sovetoloqları, o cümlədən, azərbaycanşünasları üçün əhəmiyyətli bir vəsait rolu oynaması;

- tədqiqat işi prosesində əldə edilmiş elmi yekunların müasir və gələcək siyasi xadimlər üçün bir ibrət dərsi olması;

- Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunması və ölkəmizdə siyasi sabitliyin möhkəmləndirilməsi məsələsinin vacibliyinin

cəmiyyətimizin müxtəlif təbəqələrinə, xüsusilə, gənc nəslə aşılanması baxımından xüsusi əhəmiyyət kəsb edir.

**Dissertasiyanın aprobasiyası.** Tədqiqat işinin əsas məzmunu, müddəaları və nəticələri «Azərbaycan SSR 1920-1930-cu illərdə: hakimiyyətdaxili qarşıdurmalar» adlı monoqrafiyada, nüfuzlu beynəlxalq və respublika səviyyəli elmi jurnallarda və toplularda dərc olunmuş məqalələrdə, beynəlxalq və respublika miqyaslı elmi konfranslarda edilmiş məruzə və çıxışlarda öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, on yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı göstərilir, onun öyrənilmə səviyyəsi araşdırılır. Bu hissədə tədqiqatın mənbə bazası haqqında məlumat verilir, dissertasiyanın məqsəd və vəzifələri, elmi yeniliyi, işin metodoloji əsası, nəzəri və praktiki əhəmiyyəti qeyd olunur.

Dissertasiyanın "Azərbacyan SSR-də hakim siyasi qrupun – nomenklaturanın formalaşması və hakimiyyətdaxili mübarizənin başlanması (1920-ci il aprel – 1923-cü il iyul)" adlı birinci fəsli 4 yarımfəsildən ibarətdir. "Kommunist nomenklatura: qısa xarakteristikası və yaranma mexanizmi" adlanan birinci yarımfəslində göstərilir ki, 1920-1930-cu illərdə Azərbaycan SSR-də stalinizmin əsas təsisatlarından biri olan, totalitar və müstəmləkəçi sovet təyinat sisteminin məhsulu kimi təzahür edən hakim idarəedici sinif – kommunist nomenklatura respublikada bolşevik rejiminin əsas dayağı rolunda çıxış etmişdir.

Latın sözü olan «nomenklatura» - adların siyahısı, məcmusu mənasını verir.

Nomenklatura – təyin olunan dövlət qulluqçuları qrupundan ibarət olaraq çox mühüm siyasi təsisatlardan biridir. Çoxpartiyalı siyasi sistemlərin mövcud olduğu cəmiyyətlərdə nomenklatura demokratik yolla formalaşır. Bu səbəbdən də, həmin cəmiyyətlərdə seçicilər mövcud demokratik vasitələrdən yararlanaraq nomenklaturanın fəaliyyətini daim nəzarətdə saxlayır, onun qapalı və məchul bir təsisata çevrilməsinə imkan vermir. Bunun əksinə olaraq, demokratik seçki ənənələrinin, demək olar ki, mövcud olmaması, hakimiyyəti zorla zəbt etmiş bolşeviklər partiyasının hegemonluğu şəraitində formalaşan sovet nomenklaturası kadr təyinatının qeyri-demokratik prinsipi kimi təzahür etmişdir. Əgər demokratik ölkələrdə nomenklatura bərabər, ədalətli və şəffaf seçkilər nəticəsində bəqrərar olan

ali hakimiyyət orqanları tərəfindən formalaşdırılırsa, sovet nomenklaturasının yaranmasında partiya komitələri müstəsna rol oynayırdı. Kommunist nomenklaturanın bu cəhəti onun tərifinin verilməsi üçün əsas meyar kimi çıxış edir.

Azərbaycan SSR-in sovet nomenklaturası dedikdə, Rusiya K(b)P (ÜK(b)P) MK, Qafqaz Bürosu, Zaqafqaziya Ölkə Komitəsi (ZÖK), Azərbaycan K(b)P MK, Bakı Komitəsi (BK), vilayət, qəza, rayon partiya komitələri tərəfindən namizədlikləri əvvəlcədən baxılan, təklif edilən, təsdiq olunan və geri çağırılan ən mühüm vəzifələrin siyahısı nəzərdə tutulur. 1920-ci illərin əvvəllərindən etibarən «nomenklatura» məvhumu qeyd olunan siyahıda göstərilən vəzifələrə təyin olunan şəxslərə də şamil edilməyə başladı.

Yarımfəsildə Azərbaycan SSR-in sovet nomenklaturasının elmi təsnifatı aparılır, onun milli tərkibi, sosial mənşəyi, təhsil səviyyəsi, yaş xüsusiyyətləri, sayı, cinsi mənsubiyyəti və digər mühüm xüsusiyyətləri elmi cəhətdən araşdırılır.

"Hakimiyyətdaxili ixtilaflar 1920-ci ilin aprelində - 1921-ci ilin sentyabrında" adlı ikinci yarımfəsildə qeyd olunur ki, həmin dövrdə Azərbaycan SSR-in rəhbər kadrları arasında real hakimiyyət və səlahiyyətlər uğrunda ölüm-dirim mübarizəsi yüksələn xətlə inkişaf etmiş, nəticədə, respublikanın siyasi həyatının əsas atributlarından birinə çevrilmiş müxtəlif qruplaşmalar meydana çıxmışdı. "Parçala, hökm sür!" siyasətini əldə rəhbər tutan imperialist Mərkəz bu prinsipsiz ixtilafların və dağıdıcı dəstəbazlıq meyllərinin daha da dərinləşməsində müdhiş rol oynamışdı.

Sovet hakimiyyətinin ilk aylarından başlayaraq Azərbaycan SSR-də həyata keçirilən amansız repressiyalar nəticəsində respublikanın şəriksiz hakim siyasi qrupuna çevrilmiş sovet nomenklaturasının kənarda kifayət qədər güclü opponentləri olmadığından hakimiyyət uğrunda əsas mübarizə onun öz daxilində baş verirdi. Aparılan elmi-tədqiqat işlərinin nəticələri bu mübarizənin başlanğıcının 1920-ci ilin aprelindən xeyli əvvələ – 1917-ci ilin Fevral inqilabından sonrakı dövrə təsadüf etdiyini aşkara çıxardı.

Fevral inqilabından sonra Rusiyada yaranmış anarxiya şəraitindən sui-istifadə edən V.Lenin və bolşeviklər partiyası mərkəzdə və əyalətlərdə hakimiyyəti ələ keçirmək uğrunda mübarizəyə başladılar. Bu səbəbdən, Qafqaz, xüsusilə də regionun sosial-iqtisadi və siyasi baxımdan aparıcı ölkəsi olan Azərbaycan bolşevik qloballaşmasının əsas hədəfinə çevrildi. Azərbaycanda və neft Bakısında hökmranlıq uğrunda mübarizənin əsas tərəfləri rolunda İ.Stalin, P.Caparidze, V.Lominadze, Q.Orconikidze və digər «bolşeviklərin» liderlik etdikləri gürcü qrupu və S.Şaumyan,

A.Mikoyan, Sərkis, L.Mirzəyan və s. «bolşeviklər»in rəhbərlik etdiyi erməni qrupu çıxış edirdilər.

İstər gürcü, istərsə də, erməni qrupunun «hərəkətverici qüvvələri» beynəlmiləl xarakter daşımış, onların tərkibində ermənilər, gürcülər, ruslar, azərbaycanlılar, yəhudilər və digər millətlərin nümayəndələri təmsil olunmuşdular.

Bakıda bolşevik «hərəkatının» önündə gedən gürcü və erməni «bolşeviklər»dən fərqli olaraq onların azərbaycanlı həmkarları heç zaman bu partiyada aparıcı mövqelərə malik olmamış, daha çox idarəolunan bir qrup kimi fəaliyyət göstərmişdilər. Hətta, azərbaycanlı sosial-demokratların cəmləşdiyi «Hümmət» təşkilatının ideya rəhbərləri P.Caparidze və İ.Stalin olmuşdular.[1] Azərbaycan «milli kommunizminin» bu vəziyyətindən sui-istifadə edən erməni və gürcü «bolşeviklər» 1920-ci ilin aprelinəqədərki dövrdə və sonralar onu öz avantürist siyasi maraqları naminə istismar etmişdilər.

Hələ birinci Rus inqilabından (1905-1907) əvvəl və inqilab illərində Bakıda ilk sosial-demokratik yönümlü təşkilatların yaranmasında, quldurluq və qarətçilik yolu ilə «partiya xəzinəsi»nin doldurulmasında oynadığı müstəsna rolu önə çəkən, gürcü «bolşeviklər» tərəfindən «Qafqaz Lenini» adlandırılan İ.Stalin məhz onun qrupunun Qafqazda, xüsusilə, Azərbaycanda söz sahibi olmağa daha çox haqqı çatdığını zənn edirdi. Lakin İ.Stalinin arzularının əksinə olaraq V.Lenin regionda bolşevik «hərəkatının» rəhbəri qismində onu deyil, erməni qrupunun lideri, gürcü partiyadaşları ilə bəhsləşən erməni «bolşeviklərin» «Qafqaz Lenini» adlandırdıqları S.Şaumyanı dəstəkləyirdi. 1917-ci ilin martında V.Leninin birbaşa göstərişi əsasında, Samaradan Bakıya yola düşən S.Şaumyan, qiyabi olaraq, Bakı Sovetinin sədri seçilmişdi. 1917-ci ilin dekabrında V.Lenin S.Şaumyana Qafqaz İşləri üzrə Fövqəladə Komissar mandatını verməklə, regionun taleyini ermənilərə etibar etməsini, bir daha, vurğulamış oldu. Bu seçimi edərkən V.Lenin, ilk növbədə, ermənilərin regionun əsas əhalisi olan türk-müsəlman əhaliyə patoloji nifrət bəsləməsi, onların «Böyük Ermənistan» sindromuna düçar olması faktorunu əsas götürmüşdü. V.Leninin erməni «bolşeviklərə» göstərdiyi bu «lütfkarlıq» İ.Stalinin və onun qruplaşmasının ciddi narazılığına səbəb olmuşdu. Bunun əksinə olaraq «dünya proletariatının rəhbəri» tərəfindən aldıqları dəstəkdən ruhlanan erməni «bolşeviklər» 1917-1918-ci illərdə bütün Qafqaz boyu türk-müsəlman əhalinin soyqırımını həyata keçirmiş və 1918-ci ilin

---

[1] Azərbaycan Respublikası Prezidentinin İİSSA: f.12, siy.1, iş 152, v.14

aprelində Bakı Kommunasını yaratmışdılar. Erməni «bolşeviklərin» Azərbaycandakı «sosializm quruculuğunu» soyuq qarşılayan İ.Stalin, məlum səbəbdən, Bakı Kommunasına rəğbət bəsləməmişdi. Bolşevik Rusiyasının Şimali Qafqaz Hərbi Dairəsinin rəhbəri olmasına baxmayaraq onun Bakı Kommunasının ən ağır günlərində sonuncuya lazımi hərbi yardım göstərməməsi məhz bu münasibətin bəhrəsi idi. Digər səbəblərlə yanaşı bu faktor da Bakıdakı erməni hökumətinin – Bakı Kommunasının iflasını tezləşdirmişdi.

Azərbaycanda 1920-ci ilin aprel çevrilişi zamanı da V.Lenin tərəfindən əsas rol erməni «bolşeviklərə» ayrılmışdı. Hələ çevriliş ərəfəsində, 1919-cu ilin noyabrında V.Lenin İ.Stalinlə deyil, məhz A.Mikoyanla görüşərək onu Azərbaycanda bolşevik çevrilişinin rəhbəri «mandatına» layiq görmüşdü. Beləliklə, gürcü «bolşeviklər» bu dəfə də, öz erməni «həmkarlarına» «güzəştə getməyə» məcbur olmuşdular. Aprel çevrilişindən sonra, növbə ilə, Bakı Komitəsinə rəhbərlik edən ermənilər öz əzəli rəqiblərini çətin durumla üz-üzə qoymuşdular. Özü, əsasən, mərkəzdə qərarlaşmağa çalışan İ.Stalinin Qafqaz üzrə nümayəndəsi rolunda Sovet Azərbaycanına gələn Q.Orconikidze burada siyasi tədriclə üzləşmiş və bu səbəbdən də, o, bolşevik rejiminin ilk aylarından etibarən respublikada baş alıb getməkdə olan hakimiyyətdaxili çəkişmələrin daha da kəskinləşməsi naminə hər cür fitnəkarlıqlara rəvac vermişdi. A.Mikoyanın başladığı yolu davam etdirən Q.Orconikidze, ilk növbədə, respublikanın azərbaycanlı siyasi xadimlərini dəstələrə bölərək onların vahid bir güc mərkəzinə çevrilməsinə imkan verməmək xəttini yeridirdi. Təsadüfi deyildi ki, N.Nərimanov AK(b)P MK üzvlərinin, xüsusilə, onun azərbaycanlı nümayəndələrinin məhz Q.Orconikidze tərəfindən, qəsdən, «sağ»lara və «sol»lara bölündüyünü, xüsusilə, vurğulayırdı.[1]

Digər tərəfdən, Qafqaz Bürosunun rəhbəri, N.Nərimanov və A.Mikoyan arasında başlamış münaqişədən öz siyasi məqsədləri üçün yararlanmağa çalışırdı: o, nərimanovçuları «dəstəkləyərək» əsas rəqiblərini – mikoyançıları Azərbaycandan kənarlaşdırmağa cəhd edirdi.

Nəhayət, 1920-ci ilin sentyabrında İ.Stalin və Q.Orconikidze A.Mikoyanı Nijni-Novqoroda «sürgün» etməyə nail oldular. Təsadüfi deyil ki, bundan təqribən, bir ay sonra İ.Stalin Bakıya gələrək nərimanovçuları «dəstəkləmiş», A.Mikoyanın varislərinin – Sərkis və L.Mirzəyanın fəalyyətini kəskin tənqid etmiş, onların hər ikisinin Azərbaycandan çıxarılması barədə Q.Orconikidzeyə tapşırıq vermişdi. Stalin Serqoya

---

[1] Azərbaycan Respublikası Prezidentinin İİSSA: f.609, siy.1, iş 15, v.24

kömək məqsədilə 1921-ci ilin yayında S.Kirovu Azərbaycanın partiya təşkilatına rəhbər təyin etmişdi. Məhz bundan sonra Sərkis Petroqrada yola salınmışdı. Lakin stalinçilərin L.Mirzəyanı tezliklə devirmək planı uğur qazanmadı və sonuncu, öz sələflərindən fərqli olaraq, uzun müddət Azərbaycan rəhbərliyində duruş gətirdi. Bunun əsas səbəblərindən biri onun Bakı Komitəsi, Bakı fəhlələri, antistalinçi sovet müxalifəti və regionun erməni əhalisi tərəfindən dəstəklənməsi ilə yanaşı, 1923-cü ildən etibarən Mərkəzdə «Leninin siyasi irsi» uğrunda ölüm-dirim mübarizəsinin başlanması oldu. Başı L.Trotski, L.Kamenev, Q.Zinovyev, N.Buxarin və digərləri ilə siyasi çəkişmələrə qarışan Baş Katib üçün L.Mirzəyan faktoru müəyyən bir dövr üçün öz «aktuallığını» itirmiş, BK katibinin «vurulması» planı, müvəqqəti olaraq, təxirə salınmışdı. L.Mirzəyanın bu uğurunun digər səbəbi 1921-ci ilin ortalarından etibarən V.Lenin tərəfindən nərimanovçuların «dəstəklənərək» onların stalinçilərə qarşı mübarizəyə cəlb edilməsi oldu. Belə bir vəziyyətdə stalinçilər çıxış yolunu, müvəqqəti olaraq, L.Mirzəyanla ittifaqa girərək N.Nərimanovu Azərbaycandan birdəfəlik uzaqlaşdırmaqda və «sağ» qrupu məhv etməkdə görürdü.

Beləliklə, 1920-ci ilin apreli-1921-ci ilin sentyabrını əhatə edən dövrdə baş verən siyasi çəkişmələrin əsas xüsusiyyəti ondan ibarət olmuşdur ki, respublikanın milliyyətcə azərbaycanlı rəhbər kadrları Q.Orconikidze və A.Mikoyan tərəfindən iki qrupa – «sağ»lara və «sol»lara bölünərək sonu görünməyən prinsipsiz bir savaşa cəlb edilmişdilər. Mərkəz və onun yerlərdəki nümayəndələri tərəfindən həyata keçirilən bu avantürist siyasətin əsas məqsədi Azərbaycan SSR-də həyata keçirilən müstəmləkəçi siyasətə, azca da olsa, mane ola biləcək qüvvələri neytrallaşdırmaqdan və respublikada stalinçilər ilə mikoyançılar arasında hakimiyyət uğrunda gedən savaşı pərdələməkdən ibarət olmuşdu.

“Respublikanın rəhbər kadrları arasında münaqişələr 1921-ci ilin oktyabrında – 1922-ci ilin martında” adlı üçüncü yarımfəslində qeyd edilir ki, Zaqafqaziya Federasiyasının yaradılması dövründə də Azərbaycan SSR rəhbərliyində çəkişmə və münaqişələr öz intensivliyini qoruyub saxlamışdı.

Stalinçilərlə mirzəyançıların bütün cəhdlərinə rəğmən 1921-ci ilin payızı-1922-ci ilin yazınaqədərki dövrdə, siyasi mülahizələrə görə, V.Lenin tərəfindən dəstəklənən N.Nərimanov respublika rəhbərliyində tutduğu mövqeyi qoruyub saxlamağa, hətta, barışmaz rəqibləri olan M.D.Hüseynov və R.Axundovu Azərbaycan SSR-dən kənarlaşdırmağa nail olmuşdu. N.Nərimanovdan «RK(b)P MK-nın Azərbaycan işçilərinə dair Direktivlərinin» (17 oktyabr 1921-ci il) qisasını almağa çalışan Q.Orconikidze və L.Mirzəyan, öz aralarında müvəqqəti «atəşkəs» elan

edərək, bütün güclərini 1921-ci ilin oktyabr «uğurunun» eyforiyasını yaşamaqda olan N.Nərimanova qarşı yönəltmişdilər. Məqsəd artıq öz «siyasi missiyasını» başa vurmaqla olan N.Nərimanovun Azərbaycandan kənarlaşdırılması və tezliklə, «sağ» qrupun darmadağın edilməsindən ibarət idi.

«Nərimanovçuluğun süqutu» adlanan dördüncü yarımfəsildə 1922-ci ildə və 1923-cü ilin yayında Azərbaycan SSR rəhbərliyində mövcud olan kəskin fikir ayrılıqları və prinsipsiz çəkişmələrdən, onların nəticələrindən bəhs olunur. Qeyd edilir ki, 1922-ci ilin əvvəllərindən etibarən Q.Orconikidze və mikoyançı-mirzəyançı qruplaşma müvəqqəti olaraq, antinərimanovçu platformada birləşərək «sağ» qrupu birdəfəlik olaraq siyasi səhnədən kənarlaşdırmağa müyəssər oldular. 1923-cü ilin yayında N.Nərimanov üzərində qurulan partiya məhkəməsi onu güc mərkəzi statusundan məhrum etdi və Azərbaycan SSR-də hakimiyyətdaxili savaşın yeni dövrü başladı. Bu dövrün əsas «qəhrəmanları» rolunda Q.Orconikidze və L.Mirzəyan çıxış edirdilər.

Fəslin yekunu olaraq qeyd etmək lazımdır ki, 1920-ci ilin yazı – 1923-cü ilin yayı Azərbaycan SSR-də hakimiyyətdaxili mübarizənin mühüm bir dövrü kimi xarakterizə oluna bilər. Məhz bu zaman respublikada müxtəlif siyasi qruplaşmalar meydana çıxmış və onlar arasında real hakimiyyət uğrunda amansız bir savaş başlanmışdı. Bu prinsipsiz qarşıdurmaları xarakterizə edən N.Nərimanov əksər partiyadaşlarından fərqli olaraq etiraf edirdi: "Açıq demək lazımdır: biz əldə etdiyimiz hakimiyyətdən o qədər təkəbbürlü olmuşuq ki, boş işlərlə və çəkişmələrlə məşğul olaraq, əsl işi əldən buraxmışıq.

Hakimiyyət çoxlarını korlayır...".[1]

Müstəmləkəçi bolşevik rejiminin ilk illərini əhatə edən bu dövrdə respublikanın ictimai-siyasi və iqtisadi həyatında mənfi izlər buraxan bu qarşıdurmaların, əsasən, üç güc mərkəzi arasında getdiyini müşahidə etmək olar: 1) Qafqazda, o cümlədən, Azərbaycanda İ.Stalinin nümayəndəsi olan Q.Orconikidze; 2) 1920-ci ilin payızına qədər V.Lenin, daha sonra antistalinçi sovet müxalifəti tərəfindən dəstəklənən, Azərbaycan partiya təşkilatının ürəyi olan Bakı Komitəsinə rəhbərlik edən, çoxminli Bakı fəhlələri və regionun erməni şovinist dairələri tərəfindən müdafiə olunan «müqəddəs üçlük» - A.Mikoyan, Sərkis və L.Mirzəyan, 3) Azərbaycanda sovet hakimiyyətinin siması hesab edilən N.Nərimanov.

---

[1] Nərimanov N.N. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub). Bakı: Azərbaycan dövlət nəşriyyat və poliqrafiya birliyi, 1992, s.65

Dissertasiyanın ««Milli təmayül» 1924-1927-ci illərdə» adlı ikinci fəsli iki yarımfəsildən ibarətdir. Bu fəslin «Milli kommunist müxalifət 1924-cü ildə: cəbiyevçilik və xanbudaqovçuluq» adlanan birinci yarımfəslində vurğulanır ki, 1924-cü ildə Azərbaycan SSR-də hakimiyyətdaxili qarşıdurmaların ana xəttini respublikada mütləq hakimiyyətə yiyələnmək uğrunda ZÖK katibi Q.Orconikidze və AK(b)P BK katibi L.Mirzəyan arasında gedən mübarizə təşkil etmişdir. Bu konflikt zamanı Q.Orconikdzenin ən yaxın müttəfiqi AK(b)P MK katibi S.Kirov olmuşdu. N.Nərimanovu əvvəlcə Azərbaycandan, daha sonra Qafqazdan birdəfəlik uzaqlaşdırdıqdan sonra Q.Orconikidze və L.Mirzəyan öz aralarındakı münasibətlərin aydınlaşdırılması zamanının yetişdiyi qənaətinə gəlmişdilər. Öz məramlarını reallaşdırmaq üçün hər vasitəni məqbul sayan, Azərbaycan xalqının mənafelərini tapdaq altına atan münaqişə tərəfləri ən həssas məsələ olan milli məsələdən spekulyativ məqsədlərlə istifadə etmişdilər. 1923 və 1924-cü illərdə milli məsələ üzrə qəbul edilmiş qətnamələrin rəsmi müəllifləri R.Axundov və H.Cəbiyev olsa da onların əsl müəllifi Q.Orconikidze idi. Bu qətnamələrin əsas məqsədi respublikanın, bolşevik eksperimentləri nəticəsində acınacaqlı duruma düşmüş azərbaycanlı əhalisinin problemlərinin həlli deyil, L.Mirzəyanın devrilməsi olmuşdu. BK katibi tərəfində də analoji saxtakarlıqlara geniş rəvac verilmiş, milli məsələ onun tərəfindən də məqsədyönlü şəkildə istismar olunmuşdu.

Q.Orconikidze – L.Mirzəyan çəkişmələrinin sıraviləri rolunda isə Azərbaycanın «milli təmayülçüləri» – cəbiyevçilər və xanbudaqovçular çıxış etmişdilər.

Fəslin ««Milli kommunizm» 1925-1927-ci illərdə: R.Axundov və M.Xanbudaqov» adlı ikinci yarımfəslində qeyd olunan dövrdə respublika rəhbərliyi daxilində xroniki qrupbazlıq hallarının geniş vüsət aldığı göstərilir. Belə ki, Azərbaycan SSR-də hakimiyyətdaxili mübarizənin 1925-1927-ci illərini əhatə edən mərhələsi dramatik proseslərlə zəngin olmuş, respublikanın siyasi həyatında köklü dəyişikliklər baş vermişdi.

1925-ci ilin sonu – 1926-cı ilin əvvəllərində Stalin Cənubi Qafqazdakı antimirzəyançı «canişinlərini» - Q.Orconikidze və S.Kirovu Mərkəzə aparaq, antistalinçi müxalifətə qarşı mübarizədə onların gücündən bəhrələnmək məcburiyyətində qalmışdı: S.Kirov «yeni müxalifət»in yuvasına çevrilmiş Leninqrad partiya təşkilatına rəhbər təyin edilmiş, Q.Orconikidze isə antistalinçilər üzərinə qurulacaq partiya məhkəməsini həyata keçirəcək orqanının – ÜK(b)P Mərkəzi Nəzarət Komissiyasının sədri postunu tutmuşdu. Antistalinçi kommunist müxalifət

də Cənubi Qafqazdakı dayaqlarını möhkəmlətmək qayğısına qalaraq Baş Katibin bu regiondakı əleyhdarlarını – xüsusilə L.Mirzəyan və onun kompaniyasını daim dəstəkləmiş və BK katibinin Azərbaycanda uzun müddət at oynatmasına şərait yaratmışdı. Beləliklə, BK katibi, nəinki, Azərbaycan SSR-in, o cümlədən, Cənubi Qafqazın siyasi liderinə çevrilmişdi. Belə ki, o, BK katibi vəzifəsində qalmaqla AK(b)P MK katibi postunu da ələ keçirməyə müyəssər olmuşdu. Bu dövrdə «milli təmayül» öz ampluasında qalmış, onun liderləri müstəqil siyasət aparmaq iqtidarında olmamışdılar. R.Axundov Q.Orconikidze və S.Kirovun, M.Xanbudaqov isə Sərkis və L.Mirzəyanın siyasi sifarişlərinin icraçıları qismində fəaliyyət göstərmişdilər.

Dissertasiyanın «Azərbaycan SSR-in hakim dairələrində qarşıdumalar (1920-ci ilin sonu – 1930-cu illərdə) adlanan üçüncü fəsli dörd yarımfəsildən ibarətdir. Fəslin birinci yarımfəsli «Nomenklaturadaxili çarpışmalar Bakı Komitəsi «mütləqiyyəti»nin son mərhələsində (1928-ilin iyunu – 1929-cu ilin iyulunda)» adlanır. Aparılan araşdırmaların nəticələri onu deməyə əsas verir ki, 1928-ci ilin yayında Mərkəz, nəhayət, L.Mizəyan «mütləqiyyətinə» son qoymağı qərara almış və Azərbaycanın «Baş katibinin» devrilməsi prosesinə başlamışdı. İ.Stalin L.Mirzəyanın Azərbaycandakı və Cənubi Qafqazdakı dayaqlarını sarsıtmaq məqsədilə regionun bir sıra siyasi xadimlərini – Rubeni, A.Nazaretyanı, M.C.Bağırovu və digərlərini AK(b)P MK və BK katibinə qarşı qaldırmışdı. L.Mirzəyanın devrilişini tezləşdirmək məqsədiylə Mərkəz onun əsas dayağı olan Bakı fəhlələri arasında antimirzəyançı təbliğata geniş rəvac vermiş, bu yolla respublikanın partiya rəhbərliyinin mövqelərinə sarsıdıcı zərbə vurmuşdu.

1929-cu ilin yazında L.Mirzəyanı dəstəkləyən antistalinçi sovet müxalifətinin «son magikanı»nın – N.Buxarinin məğlub edilməsi AK(b)P MK və BK katibinin devrilişini asanlaşdırdı. L.Mirzəyanın 1929-cu ilin yayında devrilməsi ilə Azərbaycan SSR-də erməni klanının ağalığına son qoyuldu, respublikada real hakimiyyət gürcü klanının – stalinçilərin əlinə keçdi. Doğrudur, A.Mikoyan, Sərkis və L.Mirzəyan sonrakı dövrlərdə də Azərbaycanda siyasi vəziyyəti nəzarətdə saxlamağa cəhdlər etmiş, lakin onların bu fəaliyyəti 1920-ci illərdəki effekti verməmişdi. Bu cəhdlərin qarşısının alınmasında gürcü qruplaşmasının liderləri sırasına nisbətən gec qoşulmuş L.Beriyanın çox böyük rolu olmuşdu. L.Beriya Q.Orconikidze və S.Kirovun Cənubi Qafqazı tərk etməsi ilə stalinçilərin regionda itirdikləri mövqelərin bərpasında xüsusi rol oynamış və 1930-cu illərin əvvəllərində

Cənubi Qafqaz və Gürcüstanın partiya təşkilatlarının rəhbəri kimi yüksək posta yiyələnməyə nail olmuşdu.

Həmin fəslin «Hakimiyyət uğrunda çəkişmələr elliklə kollektivləşmə dövrünün başlanğıcında (1929-cu ilin II yarısı – 1930-cu ilin I yarısı)» adlanan yarımfəslində göstərilən zaman kəsiyində respublikanın siyasi həyatını təlatümə salan hakimiyyətdaxili savaş nəinki səngimiş, əksinə daha da prinsipsiz xarakter almışdı. Həmin dövrdə, məlum səbəblərdən, respublikanın ictimai-siyasi həyatında yaşanan gərginlik hakimiyyətdaxili çəkişmələrin daha da intensivləşməsinə gətirib çıxarmışdı.

1929-cu ilin yayında Azərbaycan partiya təşkilatının rəhbəri təyin edilən stalinçi N.Gikalo respublikanı uğurla idarə etməyin yeganə yolunu rəhbər kadrlar arasında ixtilafların qızışdırılmasında görürdü. Onun bu siyasəti, Azərbaycan SSR-in rəhbər kadrlarının əhəmiyyətli bir hissəsi tərəfindən, haqlı olaraq, kəskin etirazla qarşılanır və sonuncular (ZÖK katibi R.Axundov, AK(b)P MK katibləri H.Rəhmanov və M.Nərimanov, AzDSİ sədri M.C.Bağırov və s.) yaranmış vəziyyətdən çıxış yolunu Q.Orconikidzenin dəstəklədiyi antistalinçi ZÖK rəhbərliyinin tərəfinə keçməkdə görürdülər.

Üçüncü yarımfəsildə («Qruplararası ixtilaflar 1930-cu ilin II yarısı – 1933-cü ilin əvvəlrində») aparılan araşdırmalar nəticəsində məlum olur ki, antistalinçi sovet müxalifəti süqut etdikdən sonra (1929) İ.Stalin və Q.Orconikidze arasında hakimiyyət uğrunda mübarizənin ilk əlamətləri özünü biruzə verməyə başlamışdı. Bu mübarizədə Q.Orconikidzeni gürcü qrupunun bir sıra liderləri, xüsusilə, ZÖK-nin birinci katibi V.Lominadze müdafiə edirdi. 1930-cu ildə Azərbaycan SSR-in bir çox siyasi xadiminin (R.Axundov, H.Rəhmanov, M.Nərimanov, M.C.Bağırov və s.) də aktiv şəkildə iştirak etdiyi antistalinçi «qiyam» - lominadzeçilik yalnız Cənubi Qafqazda və Azərbaycan SSR-də deyil, bütün ölkə miqyasında hakimiyyət uğrunda mübarizənin tərkib hissəsi idi.

1930-cu ilin noyabrında İ.Stalin tərəfindən lominadzeçi qrup-laşmanın darmadağın edilməsi Q.Orconikidzenin gələcək siyasi taleyini müəyyənləşdirən mühüm hadisə oldu. Q.Orconikidze, 1930-cu illərin ikinci yarısına qədər mövcud olan yazılmamış sovet qaydalarına uyğun şəkildə cəzalandırılaraq, "islah olunmaq üçün" partiya işindən təsərrüfat işinə göndərildi: o, 1930-cu ilin noyabrında ÜK(b)P MNK sədri vəzifəsindən azad edilərək Ümumittifaq XTŞ sədri vəzifəsinə təyin olundu. 1932-ci ilin yanvarında Serqo daha "ağır" təsərrüfat işinə- Azərbaycan neft sənayesinin də tabe olduğu SSRİ Xalq Ağır Sənaye komissarı vəzifəsinə keçirildi. Bu, "bütün Qafqazın kuratorunun" son iş yeri oldu.

Stalinçi qrupda öz mövqelərini itirməkdə olan Q.Orconikidze erməni qrupunun liderləri ilə, xüsusilə, A.Mikoyanla yaxınlaşmağa başlayır. Cənubi Qafqazda, xüsusilə, Azərbaycan SSR-də baş verən siyasi proseslərdən, o cümlədən, qruplararası mübarizədən öz məqsədləri üçün istfiadə etməyə çalışan keçmiş rəqiblər- Q.Orconikidze və A.Mikoyan bu yolla regionda itirmiş olduqları mövqelərin bərpasına cəhd edirdilər. A.Mikoyanın «böyük dönüş ilində» (1929) anadan olmuş oğlunun adının Q.Orconikidzenin şərəfinə Serqo qoyulması yeni ittifaqı simvolizə edirdi.

1933-cü ilin yanvarında erməni əsilli R.Rubenovun Azərbaycanın partiya rəhbərliyinə gətirilməsi Q.Orconikidze və A.Mikoyanın bu istiqamətdə atılmış, demək olar ki, son və uğursuz addımı oldu. 1933-cü ilin dekabrında M.C.Bağırovun AK(b)P MK və BK-nın birinci katibi postunu tutmasına nail olan, "bütün Qafqazın yeni kuratoru" L.Beriya bir müddət sonra Q.Orconikidze və onun tərəfdarlarına qarşı kampaniyaya start vermiş, onun qardaşı Papuliyanı həbs etmişdi. Həmin vaxt Q.Orconikidze, hətta, M.C.Bağırova müraciət edərək ondan yardım istəməyə məcbur olmuşdu.

A.Mikoyan isə öz xələflərindən – Sərkis və L.Mirzəyandan fərqli olaraq Stalinlə mübarizə aparmağın faydasız və təhlükəli olduğunu başa düşərək siyasi karyerasının sonrakı dövrlərində Baş Katibin kölgəsinə çevrilməyə üstünlük vermişdi. Heç şübhəsiz məhz bu taktika A.Mikoyanın kütləvi repressiya dövründən sağ-salamat çıxmasında mühüm rol oynamış, onun həmin taktikasını bölüşməyən Sərkis və L.Mirzəyan isə edam edilmişdilər.

Araşdırmalar nəticəsində məlum oldu ki, 1920-1933-cü illərin əvvəllərində Azərbaycan SSR rəhbərliyində baş verən xroniki və prinsipsiz ixtilaflar öz intensivliyini qoruyub saxlamış, bu münaqişələr respublikada sürəkli kadr dəyişiklikləri ilə müşaiyət olunmuşdur. İstər AK (b)P MK-nın birinci katibi Ruben, istərsə də onun sələflərinin (L.Mirzəyan, N.Gikalo, V.Polonski) Azərbaycan SSR rəhbərliyindən uzaqlaşdırılmasının rəsmi və qeyri-rəsmi səbəbləri arasında həmin şəxslərin respublikanın ictimai-siyasi və iqtisadi həyatını iflic vəziyyətə salan hakimiyyətdaxili mübarizə prosesində fəal iştirakı faktları dominantlıq etmişdir. Bu şəxslər və onların tərəfdarları hakimiyyətə gəlmək və onu qoruyub saxlamaq naminə respublikanın siyasi elitası daxilində qruplaşmalar yaratmış, bir çox hallarda, həmin qruplaşmalara bilavasitə rəhbərlik etmişdilər. Araşdırmalar göstərdi ki, Azərbaycanda Sovet hakimiyyətinin ilk illərində olduğu kimi 1920-ci illərin ikinci yarısı – 1930-cu illərin əvvəllərində də xroniki qarşıdurmalar, nəinki, öz intensivliyini qoruyub saxlamış, hətta, əvvəlki

dövrlərdə olduğundan daha amansız və prinsipsiz xarakter daşımışdır. Ölkə rəhbərliyi, məlum taktiki və strateji mülahizələrə görə, müəyyən zaman kəsiyində, bu vəziyyətə «dözümlü» yanaşsa da, «siyasi özfəaliyyətlə» məşğul olaraq oyun qaydalarını pozan və ya öz «siyasi missiyasını» başa vuran şəxsləri, vaxtaşırı olaraq, respublikadan kənarlaşdırmaq xəttini yeridirdi.

Fəslin «Hakim siyasi qrup «Böyük təmizləmələr» dövründə» adlı son yarımfəsli Azərbaycan SSR sovet nomenklaturasının kütləvi repressiyalar dövründəki fəaliyyəti və həmin proseslər zamanı onun verdiyi qurbanlar haqqındadır.

1930-cu illərin ortalarından etibarən hakimiyyətdaxili savaşın «dinc» mərhələsi sona çatdı və onun qanlı dövrü başladı – nomenklatura kütləvi repressiyalar dövrünə qədəm qoydu.

Antibağırovçu qruplaşma liderlərini (R.Axundov, Ə.Qarayev, H.Rəhmanov, H.Sultanov və s.) "əksinqilabi millətçi burjua təşkilatı" yaratmaqda ittiham edən respublikanın partiya rəhbərliyi, onları ağır işgəncələrə məruz qoyaraq, həmin şəxslərdən, bir çox hallarda, saxta ifadələr almağa nail olmuşdu.

Həmin ifadələr isə, öz növbəsində, respublikanın yüzlərlə vətəndaşının kütləvi repressiyaya məruz qoyulması üçün əsas rolunu oynamışdılar. Müxtəlif səviyyəli cəzalara düçar edilmiş həmin şəxslər arasında respublikanın kommunist nomenklatura elitasının nümayəndələri də yer almışdı. Yalnız 1937-ci ildə «əksinqilabi millətçi-burjua» təşkilatının üzvü kimi 22 xalq komissarının, 49 rayon partiya komitəsi katibinin, 29 rayon icraiyyə komitəsi sədrinin, 207 sovet və həmkarlar təşkilatlarının işçilərinin, 57 zavod və mədən direktorunun böyük əksəriyyətinin həbs edilməsində və mühakimə olunmasında R.Axundov tərəfindən imzalanan ifadələr xüsusi rol oynamışdı.[1]

Azərbaycan SSR-də repressiyaya məruz qoyulan 400-ə yaxın məsul vəzifəli işçilər arasında MK katibləri olmuş R.Axundov, L.Mirzəyan, Ə.Qarayev, M.Nərimanov, A.Akopov, R.Qulbis, müxtəlif vaxtlarda Azərbaycan SSR-də və ZSFSR-də yüksək partiya və hökumət postları tutmuş Q.Musabəyov, D.Bünyadzadə, M.D.Hüseynov, S.M.Əfəndiyev, H.Vəzirov, Hüseyn və Həsən Rəhmanov qardaşları, Həmid və Ayna Sultanovlar, B.Əliyev, İ.Menyaylov, M.Xəlilov, M.Barinov, M.Cuvarlinski, İ.Ulyanov və s. var idi.[2]

---

[1] Azərbaycan Respublikası Prezidentinin İİSSA: f.1, siy.44, iş 250, v.112

[2] Azərbaycan Respublikası Prezidentinin İİSSA: f.1, siy.44, iş 250, v.8

Azərbaycan SSR-in partiya, dövlət və hökumət orqanlarının yüksək vəzifəli rəhbərlərinə qarşı repressiv tədbirlər yalnız 1936-1937-ci illərdə deyil, sonrakı illərdə də həyata keçirilmişdir. Məsələn AK(b)P-nın XIV qurultayından dərhal sonra, 1938-ci ilin iyun-iyul aylarında respublikanın bir qrup rəhbər işçilərinə – XKŞ sədrinin birinci müavini M.Xəlilov, Xalq Torpaq Komissarı İ.Əsədullayev, Xalq Yüngül Sənaye Komissarı İ.Əliyev «Əksinqilabi millətçi təşkilatın ehtiyat trotskiçi mərkəzi»nin üzvləri elan edilərək tezliklə həbs edildilər.

1938-ci ilin sonlarından başlayaraq Azərbaycan SSR-də qrup şəklində repressiya praktikasına son qoyuldu. Bunun əvəzinə əvvəllər qrup şəklində mühakimə edilərək günahları sübuta yetirilməyənlərin işi bölünərək bağlı fərdi proseslər qaydasında baxılmağa başladı. Bu isə həmin işlərin baxılma müddətinin illərlə uzanması, yeni-yeni insanların uzunmüddətli həbs cəzalarına məhkum edilməsi üçün şərait yaradırdı.

Kommunist nomenklaturaya qarşı həyata keçirilən kütləvi repressiyalar, əslində, 1920-ci illərin əvvəllərindən başlayaraq respublikanın ictimai-siyasi həyatı üçün xarakterik olan hakimiyyətdaxili qovğaların «başqa vasitələrlə» davamı idi. Belə ki, kütləvi repressiya illərində bütün Sovetlər Birliyində olduğu kimi Azərbaycan SSR-də də nomenklaturadaxili savaş prosesində köhnə ənənəvi mübarizə metodları daha da təkmilləşdirilməklə yanaşı, eyni zamanda, yeni, daha mürtəce metodlar tətbiq edilməyə başladı. Əgər 1930-cu illərin ortalarına qədər, müxtəlif səbəblərdən, partiya sıralarından və tutduqları vəzifələrdən kənarlaşdırılan şəxslərin, qısa müddətdən sonra, reabilitasiyası mümkün idisə, kütləvi repressiya dövründə bu hala, demək olar ki, rast gəlinmir, M.C.Bağırovun təbirincə, «partiyaya sədaqət baxımından, lap azca da olsa, şübhə doğuran hər bir şəxslə birdəfəlik qurtarmaq»[1] praktikası həyata keçirilirdi. Beləliklə, "inqilab" öz "övladlarına" ötəri «qulaqburması vermək» mərhələsindən onları «yemək» - məhv etmək mərhələsinə qədəm qoyurdu. Stalin və onun silahdaşları tərəfindən izafi radikal üsullarla reallaşdırılan həmin «kadr inqilabı»nın əsas hədəfi 1920-ci ilin aprel çevrilişi zamanı və sonrakı illərdə Azərbaycan SSR-də həyata keçirilən «sosializm quruculuğu» prosesindəki aktiv rolunu önə çəkərək ölkə və respublika rəhbərliyindən yeni imtiyazlar və səlahiyyətlər tələb edən, məqsədinə çatmadıqda ona qarşı, hətta, qiyam qaldırmağa cürət edən «əski bolşevikləri», müstəmləkəçi rejim qarşısındakı «xidmətləri» ilə öyünə bilməyən, lakin yüksək vəzifələrə irəli çəkilməsi müqabilində rəhbərliyə

---

[1] Azərbaycan Respublikası Prezidentinin İİSSA: f.1, siy.88, iş 310, v.2

minnətdar olan yeni, daha gənc və prinsipsiz, icraçı karyeristlərlə əvəz etməkdən ibarət idi. Rəhbər kadrların bu yeni tipi respublikada feodal-kazarma sosializminin əsas qurucuları və sütunları rolunda çıxış etməli idilər.

Dissertasiyanın **«Nəticə»** hissəsində elmi-tədqiqat prosesinin nəticələri ümumiləşdirilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin dərc etdirdiyi aşağıdakı əsərlərdə öz əksini tapmışdır.**

1. Azərbaycan SSR 1920-1930-cu illərdə: hakimiyyətdaxili qarşıdurmalar. Bakı: Turxan, NPB, 2015, 556 s.
2. Геноцид против мусульманского населения Закавказья в 1917-1920-х годах в исторических источниках. Баку: Азернешр, 2000, 168 s.
3. Делопроизводственная документация Министерства Иностранных Дел Азербайджанской Республики как источник по истории геноцида против азербайджанцев в 1918-1920 годах / Актуальные проблемы изучения гуманитарных наук. Тезисы докладов межвузовской научной конференции, посвященной 500-летию Физули. Баку: Тип. АПИРЯЛ им. М.Ф.Ахундова, 1994, с.83.
4. Развитие промышленности Азербайджанской ССР в годы первой пятилетки / Доклады первой республиканской научной конференции молодых исследователей проблем истории Азербайджана, посвященной 850-летию Низами Гянджави в 2-х частях. Часть I. Баку: Тип. АзИУ им. М.Азизбекова, 1992, с.149-151.
5. Доклады Азербайджанской Чрезвычайной Комиссии как источник по истории репрессий против азербайджанцев (1917-1919) / Сборник докладов третьей республиканской научной конференции молодых исследователей проблем истории Азербайджана. Баку: Азернешр, 1995, с.243-245.
6. Azərbaycan sovet nomenklaturasının formalaşdırılmasında partiya təşkilatlarının rolu / Elm və cəmiyyət. Bakı: Kitab aləmi, 2003, №3, s.269-272.
7. XX əsrin 20-30-cu illərində sovet partiya oliqarxiyasının Azərbaycandakı nümayəndələri / Kamillik zirvəsinə doğru. Bakı: Kitab aləmi, 2003, s.155-158.
8. XX əsrin 20-30-cu illərində Azərbaycanın nomenklatur elitası / Bakı Slavyan Universitetinin əməkdaşlarının illik elmi işlərinin yekununa

həsr olunmuş konfransın məruzələrinin tezisləri. Bakı: Kitab aləmi, 2003, s.283-284.

9. Azərbaycan partiya və komsomol elitası (1930-cu illərin birinci yarısı) / Bakı Slavyan Universitetinin əməkdaşlarının illik elmi işlərinin yekununa həsr olunmuş konfransın məruzələrinin tezisləri. Bakı: Kitab aləmi, 2003, s.284-285.

10. Azərbaycan K(b)P MK Katibliyi təsisatı və onun formalaşması / Elm və cəmiyyət. Bakı: Kitab aləmi, 2004, №4, s.335-338.

11. Azərbaycanda siyasi qruplaşmalar və elitadaxili mübarizə (XX əsrin 20-ci illəri) / Tağıyev oxuları. Bakı: Kitab aləmi, 2004, s.664-668.

12. XX əsrin 20-30-cu illərində Azərbaycanın iqtisadi vəziyyəti və siyasi rəhbəriyi / Bakı Slavyan Universitetinin əməkdaşlarının illik elmi işlərinin yekununa həsr olunmuş konfransın məruzələrinin tezisləri. Bakı: Kitab aləmi, 2004, s.246.

13. Azərbaycan sovet nomenklatur elitasının təşəkkülü və təsnifatı / Bakı Slavyan Universitetinin əməkdaşlarının illik elmi işlərinin yekununa həsr olunmuş konfransın məruzələrinin tezisləri. Bakı: Kitab aləmi, 2005, s.230-231.

14. 1920-ci illərin əvvəllərində Azərbaycanın partiya rəhbərliyində qruplararası çəkişmələr (BK katibi Sərkisin məsələsinə dair). / Bakı Slavyan Universitetinin əməkdaşlarının illik elmi işlərinin yekununa həsr olunmuş konfransın məruzələrinin tezisləri. Bakı: Kitab aləmi, 2006, s.228-229.

15. Azərbaycan rəhbərliyində siyasi çəkişmələr (1928-1929-cu illər). // Dirçəliş XXI əsr, №110-111, 2007, s.117-127.

16. Azərbaycan SSR-in partiya və məhkənə-istintaq orqanlarının rəhbərliyi kütləvi repressiyalara hazırlıq dövründə (1933-1936-cı illər). // Geostrategiya, 2012, №6 (12) s.31-36.

17. Azərbaycan SSR-in nomenklatura elitası kütləvi repressiyalar ərəfəsində (1936-1938). // Geostrategiya, 2013, №3(15), s.40-44.

18. Azərbaycan SSR və Zaqafqaziya Federasiyasının partiya rəhbərlikləri daxilində çəkişmələr (1930-cu ilin ikinci yarısı). // Pedaqoji Universitetin Xəbərləri. Humanitar elmlər bölməsi, №3, 2014, s.185-189.

19. Azərbaycan SSR rəhbərliyində qarşıdurmalar elliklə kollektivləşmə dövrünün başlanğıcında. // Tarix və onun problemləri, №4, 2014, s.104-109.

20. Həbib Cəbiyev və Azərbaycan SSR-də milli kommunizm (1924-cü ilin əvvəlləri). // Geostrategiya, №2(20), 2014, s.12-16.

21. Eyyub Xanbudaqov və Azərbaycan SSR-də milli kommunizm (1924-cü ilin əvvəlləri). // Pedaqoji Universitetin Xəbərləri. Humanitar elmləri bölməsi, №1, 2015, s.161-165.

22. Azərbaycan SSR-də hakimiyyətdaxili ixtilaflar 1927-ci ildə: trotskizm və milli təmayül. // Bakı Universitetinin Xəbərləri, s.145-150.

23. Ruhulla Axundov Azərbaycan SSR-də milli kommunist müxalifətin lideri kimi (1924-1925-ci illər). // Geostrategiya, №01(25), 2015, s.60-63.

24. Azərbaycan SSR-in siyasi rəhbərliyi daxilində çəkişmələr (1929-cu ilin II yarısı). // Tarix və onun problemləri, №1, 2015, s.138-143.

25. M.C.Bağırov Azərbacyan SSR-də kommunist "müxalifətin" lideri kimi (1926-1928). // Tarix və onun problemləri, №2, 2015, s.168-174.

26. Нариман Нариманов: на закате политической эпохи. // Кавказ и мир, №19, Тбилиси, 2015, s.115-118.

27. Azərbaycan SSR-də hakimiyyətdaxili mübarizə 1929-cu ilin birinci yarısında. // Geostrategiya, №05(29), 2015, s.21-24.

28. Геноцид азербайджанцев глазами представителей коммунистической номенклатуры Азербайджанской ССР 1920-1930-х годов: противоречия и тенденциозность во взглядах. / Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər). II Beynəlxalq elmi konfransın materialları. AMEA Tarix İnstitutunun Elmi Əsərləri, 2015, №52, 53, 54, 55, s.151-156.

29. Azərbaycan SSR 1920-ci ilin payızı-1921-ci ilin yayında: hakimiyyətdaxili çəkişmələr. // Tarix və onun problemləri, №1, 2016, s.124-131.

30. Внутренние противоречия и борьба в руководстве Азербайджанской ЧК в 1920-1922 гг. // Вопросы истории №5, 2016, s.125-129.

31. Sovet Azərbaycanının rəhbər kadrları daxilində ixtilaflar (1921-ci ilin yayı) // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası №1, 2016, s.174-205.

32. Azərbaycan SSR rəhbərliyində siyasi qarşıdurmalar və hakimiyyət uğrunda mübarizə // Tarix və onun problemləri №2, 2016, s.166-173.

33. Sovet Azərbaycanının nomenklatura elitası daxilində qarşıdurmalar (1921-ci ilin ikinci yarısı-1922-ci ilin birinci yarısı) // Tarix və onun problemləri №3, 2016, s.135-141.

34. Azərbaycan sovet nomenklaturasının formalaşmasında AK(b)P MK şöbələrinin rolu (1930-cu illər) // Tarix və onun problemləri №4, 2016 s.81-86.

35. Коммунистическая номенклатура Азербайджанской ССР: краткая характеристика и механизмы формирования (первая половина 1920-х годов) // Гілея, выпуск 114 (№11), 2016, с.141-145.

36. Həbib Cəbiyev və Azərbaycan SSR-də "milli təmyül" 1926-1927-ci illərdə. // Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun elmi əsərləri, 63-cü cild, 2017, s.104-114.

37. Военно-политический союз большевиков и армян и геноцид против Азербайджанцев до и после апреля 1920 года . – "Azərbaycan Xalq Cümhuriyyəti – Azərbaycanın dövlətçilik tarixinin parlaq səhifəsi" mövzusuna həsr olunmuş beynəlxalq elmi konfransın materialları / Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun elmi əsərləri, 2018, №74, 75, 76, s.252-257.

**А.Х.Халилов**

## Советская номенклатура в Азербайджанской ССР: внутривластная борьба (20-30-ые годы XX века)

## РЕЗЮМЕ

Настоящая диссертация посвящена одному из важнейших проблем социально-политической истории Советского Азербайджана 1920-1930-х годов – формированию советской номенклатуры и беспринципной борьбе внутри правящей политической группы республики.

Как известно, 1920-1930-ые годы оставили крайне драматические и воистину трагические следы в социально-политической истории нашего народа. В течении этого периода, Северный Азербайджан стал полигоном разнообразных и часто взаимоисключающих большевистских экспериментов, которые оказали негативное влияние на социально-политической, экономической и духовно-нравственной жизни Азербайджанской ССР.

Последствия так называемых социалистических мероприятий, проведенных под громкими лозунгами о счастливом коммунистическом будущем, носили разрушительный характер, сопровождались кровавыми массовыми репрессиями против населения республики. В реализации указанных социалистических экспериментов коммунистическое руководство Советского Азербайджана сыграло важную роль. Оказавшись в плену своих личных амбиций они пожертвовали общенациональными интересами, закрывая глаза на тотальный террор и беспредел, обрушившихся на азербайджанский народ в результате большевистской оккупации.

Вдохновителем этой бескомпромиссной баталии за власть стал большевистский Центр, который проводил имперскую политику под лозунгом "Разделяй и властвуй!"

Прослеживая динамики конфликтов среди руководящих кадров республики в указанный период можно констатировать что они не являлись временно-фрагментарными, а скорее всего, носили постоянный и интенсивный характер. И это было не случайно, так как, борьба за власть являлась одной из основных форм существования

коммунистической номенклатуры, что вносило существенные коррективы в политическое поведение последней.

В диссертации, впервые в отечественной историографии, подвергнута научному анализу формирования советской номенклатуры в Азербайджанской ССР и история противоборства внутри политического руководства республики в течении всего так называемого переходного периода, который охватывает 1920-1930-х годов.

В работе особенно подчеркиваются мотивы разногласий и конфликтов между представителями номенклатурной элиты Азербайджанской ССР. На основе тщательного научного исследования архивных материалов того периода установилось что, основными мотивами указанных разногласий вовсе не являлись проблемы строительства социализма в Азербайджанской ССР, а скорее всего, вопрос борьбы за власть. Именно по этой причине, 1920-1930-х годах среди руководящих кадров республики формировались различные группировки, часто спекулирующие национальным вопросам и интересами рабочего класса, занимаясь политической демагогией, провозглашали популистские лозунги, и тем самым искусно маскировали свои истинные намерения.

Благодаря этому обстоятельству за ними шли обманутые люди, слепо верящие в свои вожди, часто непонимающие суть происходящих процессов. Борьба и склоки, развернувшихся между указанными группировками и отдельными лидерами, действовавшими по большевистскому принципу "кто-кого", объективно привели к тотальным репрессиям в течении 1920-1930-х годов. В этом смысле особенно трагическими были массовые репрессии, имевшие место во второй половине 1930-х годов, жертвами которых стали государственные и политические деятели, представители творческой интеллигенции, простые труженики республики.

Диссертация состоит из введения, трех глав, десяти параграф, заключения и списка использованных источников и литературы. Эта структура позволила полностью раскрыть суть проблемы, ставшей объектом изучения.

Во введении обоснованы актуальность и степень изученности темы.

В первой главе, впервые в азербайджанской национальной историографии, изучается процесс оформления новый политический группы в Советском Азербайджане-коммунистической номенклатуры.

Здесь же дано определение номенклатуры как основного института тоталитарной системы, изучается роль партийных организаций в создании данного института, также рассматриваются механизмы её становления и проводится научная классификация этого важного элемента сталинизма в Северном Азербайджане. В этой главе так же изучается начальный период истории борьбы за власть среди руководителей республики.

Остальные две главы посвящены истории драматических и кровавых противостояний среди руководящих кадров республики в 1923-1930-х годах.

В диссертации, на основе неопубликованных до сих пор исторических источников, прослеживаются динамика и ретроспекция борьбы за власть среди политического истеблишмента Азербайджанской ССР в указанной период.

В заключении диссертации обобщены результаты научного исследования. Научный анализ проблемы, ставшей объектом изучения в данной диссертации, позволяет вновь осмыслить своё прошлое и не допустить тех ошибок, которые могут быть роковыми в переломных моментах истории любого народа.

**A.Kh.Khalilov**

## The Soviet Nomenclature in Azerbaijan SSR : The struggle within power (20-30 years of the twentieth century)

### SUMMARY

This thesis is devoted to one of the most important problems of socio-political history of Soviet Azerbaijan in the 1920s-1930s - the formation of the Soviet nomenclature and unprincipled struggle within the ruling political group of the republic.

As is known, 1920-1930-ies left extremely dramatic and truly tragic traces in the socio-political history of our people. During this period, the North Azerbaijan became the testing ground of diverse and often mutually exclusive Bolshevik experiments, which had a negative impact on the socio-political, economic, spiritual and moral life of the Azerbaijan SSR.

The consequences of the so-called socialist activities carried out under the loud slogans about the happy communist future, were devastating, accompanied by bloody mass repression against the population. In implementing these socialist experiments communist leadership of the Soviet Azerbaijan played an important role. Trapped in their personal ambitions they sacrificed national interests, turning a blind eye to the total terror and chaos hit the people of Azerbaijan as a result of the Bolshevik occupation.

Inspirer of this uncompromising battle for power became Bolshevik Center, who led the imperial policy under the slogan "Divide and conquer!"

Tracing the dynamics of conflict among the leading cadres of the republic during this period we can say that they are not time-fragmented on the likely were constant and intense. And it was no accident, as the struggle for power has been one of the main forms of existence of the communist nomenclature that make significant adjustments to the political behavior of the latter.

In the thesis, for the first time in the domestic historiography, it is subjected to a scientific analysis of the formation of the Soviet nomenclature in the Azerbaijan SSR and the history of confrontation within the political leadership of the republic during the entire so-called transition period that covers the 1920s-1930s.

The paper particularly highlights the theme of differences and conflicts between the nomenclature of the Azerbaijan SSR. Based on a thorough scientific study of archival materials of the period established that the main motives of these differences is not a problem of building socialism in the Azerbaijan SSR, and most likely, the question of the struggle for power. It

is for this reason, the 1920-1930-ies among the leading cadres of the republic formed various groups, often speculate national issues and interests of the working class, engaged in political demagoguery, proclaimed populist slogans, and thereby cleverly disguised their true intentions.

Due to this fact they were followed by the deceived people blindly believe in their leaders, often not understanding the essence of the processes. Fighting and bickering that ensued between these groups and individual leaders, acting according to the Bolshevik principle of "someone who" objectively led to pervasive repression during the 1920-1930's. In this sense, particularly tragic were mass repressions that took place in the second half of the 1930's, the victims were statesmen and politicians, intellectuals, ordinary working people of the republic.

The dissertation consists of an introduction, three chapters, ten paragraphs, conclusion and a list of sources and literature used. This structure allowed us to fully reveal the essence of the problem that has become the object of study.

In the introduction is grounded the relevance and degree of studying of the theme.

In the first chapter, the first time in the domestic historiography, study design process a new political group in the Soviet Azerbaijan-communist nomenclature. It also defines the nomenclature as the main institution of the totalitarian system, the role of the Party organizations in the creation of this institution, it is also considered the mechanisms of formation and conduct scientific classification of this important element of Stalinism in the North Azerbaijan. This chapter also deals with the initial period of the struggle for power in the country.

The remaining two chapters deal directly, stories of dramatic and bloody confrontations among the leading cadres of the republic in 1923-1930-ies.

In this dissertation, based on unpublished until now historical sources trace the dynamics and flashbacks of a power struggle among the political establishment of the Azerbaijan SSR in the specified period.

At the end of the dissertation summarizes the results of scientific research. Scientific analysis of the problem, which has become an object of study in this dissertation, allows re-interpret the Azerbaijani people’s past and avoid the mistakes that can be fatal in the crucial moments of history of any nation.

Kağız formatı: 60/84 16/1
Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ ИМЕНИ А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**ХАЛИЛОВ АСЛАН ХАСЫ оглы**

# СОВЕТСКАЯ НОМЕНКЛАТУРА В АЗЕРБАЙДЖАНСКОЙ ССР: ВНУТРИВЛАСТНАЯ БОРЬБА (20-30-ые годы XX века)

**Специальность: 5503.02 – Отечественная история**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора наук по истории**

**БАКУ – 2018**